www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 aprel 2024-cü il Çərşənbə № 64 (8437) Qiymətı 60 qəpik

Xəbər

**Azərbaycan Avropa Şurasına qayıdır?**

yazısı səh.12-də

Gündəm

**Boykotçu müxalifətin "21 aprel oyunu və bir armud..."**



Qərbdən Milli Şuraya "vətənşüvənlik sifarişi"

yazısı səh. 5 və 8-də

**Elm və Təhsil Nazirliyində "nüfuz savaşı"**

yazısı səh.3-də

**Erməni yalanı BMT Ədalət Məhkəməsində**

yazısı səh.6-da

**Sosial şəbəkələr üzərindən soyuq silah alveri**

yazısı səh.13-də

**Vaşinqtonun Ermənistana hərbi yardımı nəyi dəyişəcək?**

yazısı səh.9-da

**Hacı İbrahimi batıran layihə qayıdır - Xəzərdə süni adalar...**

yazısı səh.10-da

**Avropa Birliyindən 8 kəndlə bağlı açıqlama**

yazısı səh.11-də

**Varlı azərbaycanlılar Gürcüstan kazinolarında**

yazısı səh.13-də

**Əczaçı qıtlığı: problemin kökündə nə dayanır?**

yazısı səh.15-də

**"Sədərək Yusif"in oğlu hakim qarşısında**

yazısı səh.13-də

**Dövlət İnvestisiya Şirkəti haqda şok hesabat: pulları belə batırıblar...**

yazısı səh.14-də

# AZƏRBAYCAN HAVADAN MÜDAFİƏ ÜÇÜN "DƏMİR GÜNBƏZ"İ DƏYİŞİR?

Müdafiə naziri Zakir Həsənovun İordaniyanın hava hücumundan müdafiə sistemləri ilə maraqlanması erməniləri təşvişə salıb



yazısı səh.4-də

# 15 ay əvvəl qıfıllanan səfirlik müəmması - Bakı tələsmir

Azərbaycan Tehrandakı səfirliyi açmaq üçün İrandan hansı suallara cavab gözləyir?

yazısı səh.12-də



Musa Məmmədov

**Dörd kəndlə bağlı yeni sənədlər üzə çıxdı - Məmmədovun o imzası...**

yazısı səh.11-də



**Bu gün Çovdarov 32 milyon varlana bilər**

yazısı səh.3-də



*Qüdrət Həsənquliyev:*

**"Yeni parlament keçid dövrü üçün olacaq"**

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 64 (8437) 17 aprel 2024



## İlham Əliyev Hacıqabulda Şirvan suvarma kanalının təməlini qoyub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlini qoyub və çıxış edib.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Qeyd edək ki, 1958-ci ildə istifadəyə verilən və ölkənin ikinci ən böyük kanalı olan torpaq məcralı Yuxarı Şirvan suvarma kanalı başlanğıcını Mingəçevir su anbarından götürür. Yuxarı Şirvan kanalı Şirvan düzündə yerləşən Yevlax, Ağdaş, Göyçay, Zərdab, Ucar, Kürdəmir, İsmayıllı və Ağsu rayonlarının 112 min hektardan çox əkin sahəsini suvarma və yaşayış məntəqələrini məişət suyu ilə təmin edir.

Suötürmə qabiliyyəti saniyədə 78 kubmetr və uzunluğu 122 kilometr olan kanalın 65 ildən artıq fasiləsiz istismar edilməsi, illik su itkilərinin kəskin artması və qurğuların qəzalı vəziyyətə düşərək funksiyalarını itirməsi nəticəsində torpaqların meliorativ vəziyyəti pisləşərək deqradasiyaya uğrayıb. Bütün bunlar mövcud əkin sahələrinin vegetasiya dövründə suvarma suyu ilə təminatında çatışmazlıqlar yaradıb, bölgənin suya daim artan tələbatının ödənilməsindəki gərginliyi daha da dərinləşdirməklə ekoloji tarazlığın pozulmasına gətirib çıxarıb.

Yuxarı Şirvan suvarma kanalının infrastrukturunun bərpası, habelə mövcud təsərrüfatların su təminatı məsələlərinin vaxtında və səmərəli şəkildə həllinin dəstəklənməsi, su ehtiyatlarından daha səmərəli istifadə olunması, magistral kanalın suburaxma qabiliyyətinin artırılması məqsədilə aprelin 8-də Prezident İlham Əliyev Şirvan suvarma kanalının yenidən qurulması haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Yuxarı Şirvan suvarma kanalının adı dəyişdirilərək Şirvan suvarma kanalı adlandırılıb.

Prezident İlham Əliyev yenidən qurulacaq Şirvan suvarma kanalının təməlini qoyub.

## Dövlət Reklam Agentliyinin yeni sədri kimdir?


Fərhad Adıgözəlov

**Prezident İlham Əliyevin imzaladığı sərəncamla Fərhad Əsgər oğlu Adıgözəlov Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin İdarə Heyətinin sədri təyin edilib.**

Fərhad Adıgözəlov bu təyinata qədər Dövlət Sığorta Kommersiya Şirkətinə sədri idi. O, 1977-ci ildə Bakı şəhərində anadan olub.

1999-cu ildə Azərbaycan Beynəlxalq Universitetində maliyyə və kredit üzrə bakalavr dərəcəsi, 2002-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə ikinci ali təhsil alıb.

2005-ci ildə təhsilini davam etdirərək Azərbaycan Dövlət İqtisad Universitetinin istehsal və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi ixtisaslaşması üzrə magistr dərəcəsini fərqlənmə ilə bitirib.

F.Adıgözəlov əmək fəaliyyətinə 2000-ci ildə "Azərsığorta" Dövlət Sığorta Şirkətində başlayıb. O, 2003-2005-ci illərdə Azərbaycan Beynəlxalq Bankında mütəxəssis, 2005-2009-cu illərdə Azərbaycan Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəis köməkçisi, 2009-2013-cü illərdə "Kapital Bank" ASC-də departament direktoru vəzifəsində çalışıb.

F.Adıgözəlov 2013-2014-cü illərdə Azərbaycan Respublikası Maliyyə nazirinin köməkçisi, 2015-2017-ci illərdə "Azər-Türk Bank" ASC-nin İdarə Heyətinin sədri və 2020-ci ilin sentyabr ayından Milli Depozit Mərkəzinin İdarə Heyətinin sədr müavini olub.

# Rəşad Dağlı əfv oluna bilər?




**Qonşusunu qətlə yetirməkdə təqsirləndirilən meyxanaçı Rəşad Əmirovun (Dağlı) cinayət işi üzrə məhkəmə araşdırması ötən ilin iyul ayında başa çatıb. Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Leyla Əsgərova-Məmmədovanın sədrliyi ilə keçirilən iclasda hökm oxunub.**

Hökmə əsasən, Rəşad Dağlı qəsdən adam öldürməkdə və soyuq silah saxlamaqda təqsirli bilinərək 9 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Yaxın vaxtlarda Azərbaycan Prezidentinin növbəti əfv sərəncamı verəcəyi gözlənilir. Prezident yanında Əfv Komissiyasının iclasları artıq başlasa da, əfv üçün müraciətlər davam edir.

Bəs görəsən, əfv sərəncamı ötən il həbs olunan meyxanaçı Rəşad Dağlıya şamil oluna bilər?

**Hüquqşünas Ramil Süleymanov Referans.az-a bildirib ki, cəzadan və cinayət məsuliyyətindən azad etməyin bir neçə forması var:** "Cəzadan və cinayət məsuliyyətindən azad etməyin əsas növləri amnistiya və əfvetmədir. Amnistiya aktı fərdi qaydada müəyyən edilməyən şəxslər barəsində, yeni kütləvi şəkildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilir. Bunun nəticəsində cinayət törətmiş şəxslər cinayət məsuliyyətindən azad oluna bilər, onların cəzalarının müddəti azaldıla bilər və ya daha yüngül cəza növü ilə əvəz oluna bilər, o cümlədən həmin şəxslərin üzərindən məhkumluqları götürülə bilər".

Hüquqşünas qeyd edir ki, əfvetmə birbaşa fərdi qaydada təyin olunmuş şəxslər barəsində Prezident tərəfindən verilən bir sənəddir. Onun sözlərinə görə, cinayət törətməyə görə məhkum olunan şəxslər "əfv sərəncamı" ilə faktiki olaraq cəzalarından tam azad oluna bilərlər və ya həmin cəzaların bir hissəsi ləğv olunub, azaldıla bilər: "Ömürlük azadlıqdan məhrum edilmiş şəxslər var ki, bu şəxslərin də əfv sərəncamına düşməsi mümkündür və onların cəzası 25 ildən çox olmayan müddətə əvəz oluna bilir. Eyni zamanda şəxslərin üzərindən məhkumluqları götürülür".

Ramil Süleymanov əlavə edib ki, meyxanaçı Rəşad Dağlı cəzasının təxminən 1 il və yaxud il yarımını çəkib, amma hazırkı halda əfv sərəncamı ona şamil olunmayacaq, çünki hər hansı şəxs əfv olunması üçün ona verilmiş cəzanın mütləq şəkildə yarısını çəkmiş olmalıdır. Cəzanın yarısı çəkildikdən sonra şəxsin özü və ya yaxın qohumları tərəfindən müvafiq qaydada ərizə ilə Əfv Komissiyasına müraciət olunmaqla şəxsin əfv olunmasına nail olmaq mümkündür.

## Azərbaycana gətirilən maşınlar bahalaşıb

**Bu ilin ilk 3 ayında Azərbaycana 19 571 ədəd avtomobil idxal olunub.**



Dövlət Gömrük Komitəsinin məlumatına görə, idxal olunan avtomobillərin ümumi dəyəri 361 milyon dollar olub.

Ötən ilin eyni dövrü ilə müqayisədə ölkəmizə gətirilən avtomobillərin sayı azalsa da, qiyməti artıb. Belə ki, 2023-cü ilin yanvar-mart aylarında 315 milyon dollar dəyərində 20 799 ədəd avtomobil Azərbaycana gətirilib.

Ölkəyə gətirilən avtomobillərin 17 610 ədədi əsasən adam daşımaq üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər mühərrikli nəqliyyat vasitələri olub. Azərbaycana idxal olunan avtomobillərin bir ədədinin orta qiyməti 18 min dollara yaxın olub. 2023-cü ilin ilk 3 ayında isə bu rəqəm 14.4 min dollar idi.

Bu il Azərbaycana gətirilən avtomobillərdən 830-u elektromobil (yalnız elektrik mühərriklə hərəkətə gətirilən nəqliyyat vasitələri), 3615-i isə hibrid avtomobil (daxili yanma mühərriklə yanaşı elektrik mühərriklə də hərəkətə gətirilən nəqliyyat vasitələri) olub. Ötən ilin eyni dövrü ilə müqayisədə hər iki avtomobil sayında artım qeydə alınıb.

İdxal olunan hibrid və elektrik avtomobillərin qiymətində də artım qeydə alınıb. Yanvar-mart aylarında Azərbaycana 118 milyon manatlıq hibrid, 35 milyon dollar dəyərində elektromobil gətirilib. Hibrid avtomobillərinin birinin qiyməti ötən il 21.7 min dollar olduğu halda, bu il 32.6 min dollar olub. Elektromobillərin birinin orta qiyməti isə 2023-cü ildə 41.6 min dollar, 2024-cü ildə 42.5 min dollar olub.



## Baş redaktor və müxbir niyə həbs edilib?

**Vətəndaşlardan hədə-qorxu ilə pul tələb edən baş redaktor və müxbir həbs edilib.**

Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

"Realmedia.az" internet saytının baş redaktoru Ramin Qurbanov, özünü qəzetlərdən birinin müxbiri kimi təqdim edən Xəyyam Qurbanlı Daxili İşlər Nazirliyinə vətəndaşlardan daxil olan çoxsaylı şikayətlər əsasında saxlanılıblar.

DİN-in mətbuat xidmətindən bildirilib ki, fakta görə Cinayət Məcəlləsinin hədə-qorxu ilə tələb etmə maddəsinə müvafiq olaraq hər iki şəxs barəsində polis idarəsində cinayət işi qaldırılaraq həbs edilib. Hazırda cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir. Onların əməllərindən zərərçəkən başqa şəxslər varsa, polisə müraciət edə bilərlər.

Qeyd edək ki, onlar ayrı-ayrı şəxslərə və şirkətlərə dair neqativ məlumatların paylaşılacağı ilə bağlı hədə-qorxu gəlməsi, eləcə də paylaşılmış məlumatların silinməsi məqsədilə müxtəlif məbləğlərdə qanunsuz pul tələb etməkdə ittiham edilirlər.



## Azərbaycandan neft alan ölkələr

**2024-cü ilin yanvar-mart aylarında Azərbaycandan 3 milyard 490,1 milyon dollarlıq xam neft və xam neft məhsulu ixrac olunub. Dövlət Gömrük Komitəsi ixrac ünvanlarını belə sıralayır: İtaliya, İsrail, Hindistan, Almaniya, Tailand, Tunis, Portuqaliya, Çexiya, Rumıniya, Türkiyə, Polşa, Fransa, İndoneziya, Xorvatiya, İspaniya, Böyük Britaniya, Özbəkistan.**

İlk rübdə Azərbaycanda 7,3 milyon ton neft çıxarılıb, gündəlik xam neft hasilatı yanvarda 474 min barel, fevralda 476 min barel, martda 481 min barel göstərilib.

Beynəlxalq öhdəliyə görə, gündəlik hasilat 551 min bareli ötə bilməz.

Dövlət büdcəsində bir barel neft 60 dollardan götürülüb. Aprelin 16-da "Azəri-Layt" markalı Azərbaycan neftinin bareli 92,06 dollara satılır.

YENİ MÜSAVAT
N 64 (8437) 17 aprel 2024

# Elm və Təhsil Nazirliyində "nüfuz savaşı"

## Nazirliyin aparat rəhbəri Mətin Kərimli ilə nazir müavini Həsən Həsənli arasında nə baş verir?

**Elm və Təhsil Nazirliyi daxilində baş verənlərlə bağlı Lemokrat.az saytı maraqlı iddia ilə çıxış edib. "Məlumatlara görə, nazirliyin aparat rəhbəri Mətin Kərimli ilə nazir müavini Həsən Həsənli arasında "nüfuz savaşı" daha da qızışıb. Əsas mübarizə motivi kadrların təyin edilməsidir. Həsən Həsənli Prezident İlham Əliyevin sərəncamı ilə bu vəzifəyə təyin olunub və onun əsas işi-missiyası kadr siyasətini həyata keçirməkdir. Aparat rəhbəri Mətin Kərimli isə "Elm və Təhsil Nazirliyində mənəm, Bağdadda kor xəlifə" prinsipi ilə yanaşır, nazirlikdə bütün strukturları ələ almağa çalışır", - deyə saytın yaydığı məlumatda bildirilir.**



İddia olunur ki, Həsən Həsənli Mətin Kərimlinin kadr siyasətinə qarışdığını, onun işinə müdaxilə etdiyini dəfələrlə rəhbərliyə bildirib. "Baş verənlərdən təhsil naziri Emin Əmirullayevin də məlumatlı olması heç kəsə sirr deyil. Çünki Həsən Həsənli dəfələrlə Mətin Kərimlinin əməlləri ilə bağlı birbaşa nazirə etirazını bildirib. Elm və təhsil nazirinin müavini olan Həsən Həsənli aparat rəhbəri Mətin Kərimlinin kadr siyasəti ilə razılaşmır, onun texniki vəzifə daşıdığını deyir.

Məlumatlara görə, bu məsələ nazirliyin qapalı iclaslarında dəfələrlə müzakirə edilib. Həsən Həsənli bildirib ki, o, bu vəzifəyə Prezidentin sərəncamı ilə təyin olunub və nazirlikdə kadr işlərinə cavabdeh şəxsdir, ancaq Mətin Kərimli onu saymır və kadr işlərinə müdaxilə edir.

Mətin Kərimli isə bütün strukturları ələ almağa çalışdığı kimi, kadr məsələsini də nəzarətə götürmək istəyir", - deyə yazıda qeyd olunur.

**O da bildirilir ki, hazırda Mətin Kərimli ilə Həsən Həsənli arasında "soyuq müharibə" davam edir:** "Kimin "qalib" gələcəyini demək çətindir, lakin "məğlubun" təhsilimiz olduğu aşkar şəkildə ortadadır. Çünki təhsildən məsul olan nazirlik əsas işini kənara atıb, daxili qarşıdurmaların, "nüfuz müharibə"lərinin platformasına çevrilib".

Ötən ilin may ayında bu vəzifəyə təyin edilən Mətin Kərimli 1999-cu ildə Bakı Dövlət Universitetinin Beynəlxalq əlaqələr fakültəsini bitirib. 2000-2001-ci illərdə Fransanın Strasburq Universitetində Avropa elmləri üzrə fənlərarası diplom, 2001-2002-ci illərdə Avropa elmləri üzrə magistr dərəcəsi alıb. 2012-ci ildə Harvard Universitetini dövlət idarəetməsi ixtisası üzrə magistr dərəcəsi ilə bitirib.

Mətin Kərimli Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının vitse-prezidenti, NATO-nun Müdafiə Siyasəti və Planlaşdırma İdarəsinin Beynəlxalq Katibliyində tərəfdaşlıq zabiti, Azərbaycanın NATO yanında nümayəndəliyində ikinci katib olub. Bundan başqa, Xarici İşlər və Vergilər nazirliklərində müxtəlif vəzifələrdə çalışıb.

2014-2020-ci illərdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini olub. 2020-ci ilin yanvar ayından Beynəxalq Əmək Təşkilatının Sakit okean hövzəsi ölkələri üzrə ofisinin direktoru olub.

Həsən Həsənliyə gəlincə, nazir müavini 1991-ci ildə Naxçıvan şəhərində anadan olub. O, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 2009-2013-cü illərdə Böyük Britaniyanın Bristol və Kembric universitetlərində ictimai siyasət və siyasi elmlər ixtisası üzrə bakalavr və magistr təhsili alıb.

2015-2016-cı illərdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində həqiqi hərbi xidmət keçib.

Həsən Həsənli Elm və Təhsil Nazirliyində mütəxəssis, sektor müdiri, nazir müşaviri, aparat rəhbərinin müavini və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədri vəzifələrində çalışıb.

2021-ci ilin iyun ayından 2023-cü ilin 30 yanvar tarixinədək Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri vəzifəsində çalışıb.

❑ **"Yeni Müsavat"**

# Bu gün Çovdarov 32 milyon varlana bilər

## Ləğv edilmiş MTN-in sabiq idarə rəisi müsadirə edilmiş əmlaklarını geri qaytarmaq üçün yenə məhkəməyə müraciət edib - nələri geri istəyir?

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) idarə rəisi olmuş Akif Çovdarovun müsadirə edilmiş əmlaklarını geri qaytarmaq üçün məhkəmə qərarından verdiyi kasasiya şikayəti üzrə məhkəmənin vaxtı məlum olub. Pravda.az-ın əldə etdiyi məlumata görə, məhkəmənin ilkin hazırlıq iclası bu günə-aprelin 17-nə təyin edilib.**



Şikayət hakim Tahir Kazımovun sədrliyi ilə araşdırılacaq. Qeyd edək ki, 2022-ci ilin dekabrında Bakı Apelyasiya Məhkəməsi Akif Çovdarovun 32 milyon 256 min 900 manatlıq əmlakının müsadirədən azad olunaraq sahiblərinə qaytarılması qərarını çıxarıb. Lakin bir müddət sonra Ali Məhkəmə prokurorun protesti əsasında həmin qərarı ləğv edib.

Bakı Apelyasiya Məhkəməsi təkrar baxış zamanı yenidən əmlakların dövlət nəfinə müsadirəsinə qərar verib. Qərardan narazı qalan Akif Çovdarov Bakı Apelyasiya Məhkəməsinə kasasiya şikayəti verib. Sabiq MTN-çi əmlaklarının yaxınlarına geri qaytarılmasını tələb edir.

Yada salaq ki, Akif Çovdarov 2015-ci ilin noyabr ayında həbs edilib. O, məhkəmə ifadəsində deyib ki, ittihamda göstərilən əmlakların əksəriyyəti ona məxsusdur. Bildirib ki, həmin əmlakların hamısının sənədi var. Həmin əmlakların bəzisi övladlarına və kürəkənlərinə məxsusdur. Akif Çovdarov qeyd etmişdi ki, yaşadığı evin torpağını 2000-ci ildə, MTN-də işləmədiyi zaman alıb. Novxanıda yerləşən bağını isə o dövrdə Mərdəkanda olan torpağını sataraq alıb. Çovdarov iddia edirdi ki, kürəkənləri əmlakları özləri alıb.

2017-ci il oktyabrın 30-da Sabunçu Rayon Məhkəməsi Akif Çovdarovun 12 il azadlıqdan məhrum edilməsinə qərar vermişdi, üzərinə həbs qoyulmuş əmlakları müsadirə olunmuşdu. Akif Çovdarovun ailə üzvlərinin qaldıqları evinin üzərinə qoyulmuş həbs isə götürülmüşdü.

**Akif Çovdarovun müsadirə olunan əmlakları arasında aşağıdakılar idi:**

Bakı şəhəri, "8-ci kilometr bazarı" adlanan ticarət mərkəzinin səhmlərinin yarısı - 8.1 milyon manat;

Biləcəri qəsəbəsində 560 kv.metr torpaq sahəsi - 95 min manat;

Biləcəri qəsəbəsində 0,06 hektar torpaq sahəsi - 300 min manat;

Yasamal rayonu, Məhəmməd Xiyabani küçəsi 5 ünvanında 250 kv.metr qeyri-yaşayış sahəsi - 231 min 500 manat;

Xətai rayonu, Məhəmməd Hadi küçəsində mənzil - 125 min manat;

Nəsimi rayonu, Bülbül prospektində mənzil - 483 min manat;

Novxanı qəsəbəsində torpaq sahələri - 86 min manat və 71 min manat;

Novxanı qəsəbəsində bağ evi - 800 min manat;

Novxanı qəsəbəsində bağ evi - 700 min manat;

Saray kəndində torpaq sahələri - 60 min manat, 203 min manat, 59 min 500 manat;

Xızı rayonu, Qızılqazma kəndində 2 hektar torpaq sahəsi - 400 min manat;

Qəbələ rayonu Nohurqışlaq kəndində torpaq sahələri - hər biri 15 min manat;

Şamaxı rayonu Nağaraxana kəndində torpaq sahələri və tikililər - ümumilikdə 4 milyon 310 min manat;

Kürdəmir rayonunun müxtəlif kəndlərində torpaq sahələri və təsərrüfatlar - 640 min manat;

Kürdəmir şəhərində "Ərşəli yeri" adlanan ərazidə yerləşən 100 hektar torpaq sahəsinin üzərində yerləşən 93,1 kv.metr tikili, 24 min nar kolu - 208 min manat;

Bakı şəhəri, Nəsimi rayonu, Seyidzadə və Cavadxan küçələrinin kəsişməsində yerləşən qarajlar - 96 min manat;

Binəqədi rayonu, 7-ci mikrorayon, Xarici dairəvi küçəsində 4941 kv.metrlik 6 mərtəbəli bina - 3 milyon 178 min manat;

Bakı şəhəri, Nəsimi rayonu, Cavadxan küçəsində 7 mərtəbəli qeyri-yaşayış binası - 4 milyon 500 min manat.

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, Akif Çovdarov etiraf etməsə də, onun bunca əmlaklara MTN-dəki maaşı ilə sahiblənməsi mümkünsüz idi:** "Yaxın qohumları bu qədər əmlakı haradan alıb? Biznesdən? Haradadır həmin biznes? Həmin biznesdən dövlətə verilən vergilərin hesabını açıb göstərə bilərlərmi?

Necə oldu ki, Akif Çovdarovla Hilal Əsədov MTN-də rəhbər vəzifəyə gələndən sonra həyat yoldaşları Bakının ən böyük bazarlarından olan "8-ci kilometr bazarı"na sahib oldular? İş materiallarında da çoxsaylı faktlar var ki, bazarın sahiblərin başına min bir oyun açıblar və bazarı əllərindən alıblar. O zaman Bakı Apelyasiya Məhkəməsində hakimlər əmlakların Akif Çovdarova qaytarılması qərarını gözlərini yumub veriblər. Belə qərarlar əlbəttə ki, qanunsuz idi və ləğv olundu. Bu qərarın Akif Çovdarovun məhkəmə hakimiyyətindəki əlaqələrindən doğması ehtimalı böyük idi. O qərar veriləndən sonra Ali Məhkəmə rəhbərliyi dəyişdirildi, Baş Prokurorluq protest verib qərarın ləğvini tələb etdi. Ramiz Rzayev uzun illər prokurorluq orqanında rəhbər vəzifədə çalışandan sonra Ali Məhkəməyə sədr gətirilmişdi. Onun hüquq-mühafizə orqanlarında çalışdığı zamanlarda Akif Çovdarovla yolunun kəsişməsi, ortaq tanışlarının olması, özlərinin yaxşı münasibətlərinin olması ehtimalı böyük idi. Hazırda isə Ramiz Rzayevi İnam Kərimov əvəzləyib. İnam Kərimov Ali Məhkəmə sədri postunda artıq nəzərəçarpacaq dəyişikliklər etməyi bacarıb. Kimlərinsə şəxsi mənafelərinin, vəzifələrinin qanundan üstün tutulmaması istiqamətində ciddi addımlar atılır. Akif Çovdarovun əmlaklarının özünə qaytarılması ittiham tərəfinə tərs sillə idi. Hələ ibtidai istintaq dövründə bu əmlakların sırf Akif Çovdarovun vəsaitləri hesabına əldə edilməsinə dair sübutlar toplanmalı, ifadələr alınmalı, əmlakların müsadirəsi üçün qanuni əsasların varlığı sübuta yetirilməli idi. Məhkəmələr də bu məsələyə məhz ittiham çərçivəsində baxırlar. Bu gün hakimlərin cəzalandırılması üçün kifayət qədər əsaslar var. Amma həmin hakimlərin qarşısına gedib çıxan ittiham da elə tərtib olunmalıdır ki, hakim qanunsuz qərar verə bilməsin. Ümumiyyətlə, "MTN işi" üzrə istintaq çox səthi aparılıb və bununla da təqsirləndirilən şəxslərə geniş manevr imkanları tanınıb. Odur ki, bizlər bu işlər üzrə həbs olunanların tez bir zamanda azadlığa çıxmalarının şahidi olduq. Əslində isə belə olmamalı idi. Əgər əmlaklar Akif Çovdarovun ailə üzvlərinin adına rəsmiləşibsə, onlar barəsində də cinayət yolu ilə əldə edilən əmlakların leqallaşmasında iştirakçılığa görə cinayət işi başlanmalı idi. Bunu bilərəkdən etmirlər ki, gələcəkdə əmlakları geri ala bilsinlər. İstintaqın alayarımçıq aparılması iş üzrə zərərçəkənlərin də maraqlarına çox ciddi şəkildə xələl gətirir. Onlara dəyən ziyan ödənmir".

❑ **E.MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 64 (8437) 17 aprel 2024

# Azərbaycan havadan müdafiə üçün "Dəmir günbəz"i dəyişir?

## Müdafiə naziri Zakir Həsənovun İordaniyanın hava hücumundan müdafiə sistemləri ilə maraqlanması erməniləri təşvişə salıb; **Qabil Hüseynli:** “İordaniyanın HHM-ləri İsrailin ”Dəmir günbəz"indən keyfiyyətlidir"

**Erməni mediası Azərbaycanın müdafiə naziri Zakir Həsənovun İordaniyaya səfərindən ciddi narahat olub. Məsələn, “ArmenianReport” iddia edir ki, nazir Həsənov İordaniyanın hava hücumundan müdafiə sistemləri ilə maraqlanır və bunu “Ermənistan üçün ciddi təhdid mesajı” kimi yozur. Erməni təşvişini tam mənası ilə anlamaq üçün xatırlatmaq yerinə düşərdi ki, İranın İsrailə atdığı raket və silahlı dronların mühüm qismi İordaniya tərəfindən zərərsizləşdirilib.**

Yazıda Azərbaycanın yaxın zamanlarda bu sistemə keçə biləcəyindən narahatlıq vurğulanır. “Zakir Həsənovun İordaniyada rəsmi səfərdə olması təsadüfi deyil. O, Xüsusi Əməliyyat Təlim Mərkəzində olub, sonra Kral Hərbi Hava Qüvvələrinin komandanı general-mayor Məhəmməd Hyasətlə görüşüb. Görüşdə silahlı qüvvələrin inkişaf perspektivləri, hərbi təhsil və hərbi-texniki əməkdaşlıq məsələləri müzakirə edilib. Bu ümumi ifadənin arxasında nə dayandığını təxmin etmək çətin deyil. Azərbaycan İordaniya ilə əməkdaşlığı inkişaf etdirir, İsrail, Pakistan və Türkiyə ilə sıx əlaqələrə malikdir.

Bütün bunlar isə Rusiyanın açıq-aşkar Ermənistana yanlış əllərlə “dərs vermək” istəyi fonunda baş verir. Beləliklə, bizi çox narahat anlar gözləyir", - deyə məqalədə vurğulanır.





80-ci illərdə Sovet İttifaqı İordaniyanı "Strela-10" və "Osa-AKM" zenit-raket kompleksləri, həmçinin "ZSU-23-4 Shilka" özüyeriyən zenit silahları ilə təmin edib. Rəsmi mənbələrdə deyilir ki, İordaniya hava hücumundan qorunmaq üçün indi “Hughes AN/TPQ-36" mobil radar sistemindən istifadə edir. Sistem minaatan, artilleriya və raket atəşlərini aşkar etmək və izləmək üçün nəzərdə tutulub. Hazırda ABŞ Dəniz Piyadaları Korpusu, Avstraliya, Portuqaliya, Türkiyə və Ukrayna silahlı qüvvələrində istifadə edilir. COBRA sistemi isə Fransa, Böyük Britaniya və Almaniya Silahlı Qüvvələri üçün birgə hazırlanmış əks batareya radar sistemidir. Bu, düşmən sahə artilleriyasını aşkar etmək üçün təkərli şassi üzərində aktiv elektron skan edilmiş 3D radardır.

İsrail-HƏMAS müharibəsi başlayanda isə İordaniya hava sərhədlərini qorumaq üçün ABŞ-dan rəsmi olaraq “Patriot" sistemləri istəyib. İranın İsrailə dron və raket hücumu zamanı hansı müdafiə qurğularından istifadə etdiyi bilinmir.

“Dəmir günbəz” 2006-cı ildə İsrail və Livanın cənubunda yerləşən islamçı qrup “Hizbullah” arasında baş vermiş münaqişədən sonra hazırlanıb. “Dəmir günbəz” bütün hava şəraitində fəaliyyət göstərən, yaxınlaşan bir sıra qısa mənzilli silahlardan qorunmaq üçün nəzərdə tutulmuş hava hücumundan müdafiə sistemidir. O, yaxınlaşan raketləri izləmək üçün radardan istifadə edir və yaşayış məntəqələrinə dəymə ehtimalı olan raketlərlə yaşayış olmayan ərazilərə düşəcək raketləri fərqləndirə bilir. Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin hesablamalarına əsasən, bir raket batereyasının istehsalı 100 milyon dollara (170 milyon manat) başa gəlir. Son münaqişə başlayandan bəri HƏMAS İsrailə etdiyi hücum zamanı 5000 raket atdığını iddia edir, İsrail ordusunun bildirdiyinə görə, "Dəmir günbəz" onlardan 153-nü ələ keçirib, digərləri isə açıq ərazilərə və ya Qəzza zolağına düşüb.

ABŞ-ın “Patriot”u “Dəmir günbəz”lə oxşar formada işləyir, lakin o, qısamənzilli silahlardan daha çox, ilk növbədə təyyarələri, qanadlı raketləri və ballistik raketləri vurmaq üçün nəzərdə tutulub. Azərbaycanın İsraildən bu sistemləri alması məsələsi Rusiyanın Ermənistana 300 km mənzilli “İsgəndər” operativ-taktiki raketlərini verməsindən sonra gündəmə gəlib. “Dəmir günbəz” “İsgəndər” tipli raketləri də hədəfə çatmamış neytrallaşdıra bilər. Azərbaycanın bu müdafiə sisteminə sahib olub-olmadığı haqda rəsmi bilgi yoxdur.

Z.Həsənovun səfəri, göründüyü kimi, hava qüvvələri ilə daha çox bağlıdır. Nəzərə almaq lazımdır ki, İordaniyada erməni lobbisi güclüdür. O səbəbdən bu iddialar yalan olmaya bilər. Azərbaycanın müdafiə qabiliyyətinin artırılacağı haqda Prezident İlham Əliyev bir neçə dəfə danışıb. Son illər Azərbaycanın da daxil olduğu regionda gərginlik artmaqdadır. O səbəbdən Azərbaycan xüsusilə müasir dron və raket hücumlarından daha etibarlı qorunmalıdır. Mümkündür ki, Azərbaycan daha başqa havadan müdafiə sistemləri ilə də maraqlanır. Yeni dövr, Ermənistanın sürətlə silahlanması, İranın aqressiyasının artması havadan müdafiə sistemlərini daha etibarlı etməyə vadar edir. Azərbaycan “Dəmir günbəz”ə arxayın ola bilər, yoxsa daha başqa müdafiə sistemləri də lazım olacaq?

**Professor Qabil Hüseynli “Yeni Müsavat”a bildirdi ki, İordaniyada hava hücumundan müdafiə sisteminin əsaslarını İsrail mütəxəssisləri qurublar**: “İordaniya bu sistemlərin istehsalını İsraillə birgə aparır. Yeni şirkət İordaniyada yerləşir və İsrail həmin firmaya elmi-texnoloji dəstək göstərir. İndi İranın hücumu ilə bağlı məlum oldu ki, "Dəmir günbəz" heç də ən yaxşı hava hücumundan müdafiə sistemi deyilmiş. Bu günbəz İsrailin HHM-də üçüncü yer tutur. Orada “Error” adlı müdafiə sistemi var və ilk sırada gedir. Kifayət qədər effektli müdafiə sistemidir. Bundan başqa, İordaniyanın Britaniya və İsraillə sıx əlaqələri var. Ona görə də ingilislərin köməyi ilə müasir hava hücumundan müdafiə sistemləri istehsal edə bilir".

**Q.Hüseynli qeyd etdi ki, İordaniya HHM sahəsində dünyanın ilk onluğundadır:** “Bu ölkənin lideri Azərbaycana gəlmişdi, müdafiə naziri ilə görüş keçirilmişdi, indi Zakir Həsənov İordaniyaya səfər edib, müdafiə sistemlərinin alınması barədə müqavilə imzalanmalıdır. Əvvəlcə həmin silahlarla tanışlıq olacaq, sonra sənədlər imzalanacaq. Zənnimcə, yaxşı ideyadır. Hətta bəziləri hesab edirlər ki, İordaniyanın istehsal etdiyi hava hücumundan müdafiə sistemləri İsrailin birinci yerdə dayanmayan "Dəmir günbəz"indən keyfiyyətlidir. Çünki ingilis mütəxəssislərin də qatqısı var. Özüm də təəccüblənirəm ki, İordaniya bu sahədə belə inkişaf edib". **Professor Ermənistanın həyəcanlanması ilə bağlı vurğuladı ki, İrəvan sülh müqaviləsinin mətninin razılaşdırılması haqda fikirləşsə daha yaxşı olar:** “Azərbaycan postmüharibə dövründə özünün hərbi potensialını daha da gücləndirir. Ermənistana Fransa, Hindistanın verdiyi silahlar yardım edə bilməz. Ermənilər elə fikirləşirlər ki, bu silahlanma ilə revanş götürə bilərlər. Ancaq Azərbaycan onlara verilən silahlardan qat-qat güclülərinə malikdir. O baxımdan Paşinyan hakimiyyəti regionda dayanıqlı sülh haqda daha çox qayğı çəkməlidir”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

# Azərbaycanla Türkiyə arasında hərbi informasiya mübadiləsi

**Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr Müşavirliyinin nümayəndə heyəti ilə görüş keçirilib.**

Bu barədə Müdafiə Nazirliyindən bildirilib. MN-in mətbuat xidmətinin rəisi polkovnik Anar Eyvazov müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq qərarı ilə təsdiq edilmiş nazirliyin Kommunikasiya Strategiası ilə bağlı geniş məruzə ilə çıxış edib. Həmçinin Azərbaycan Ordusunun şanlı qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsində və sonrakı hərbi əməliyyatlarda informasiya sahəsində əldə edilən uğurlar və dezinformasiyalara qarşı aparılan mübarizə tədbirləri haqqında danışıb.

Sonra qardaş ölkənin nümayəndə heyəti Türkiyə Silahlı Qüvvələrində kommunikasiya sahəsində görülən işlərə dair brifinq təqdim edib.

Görüşdə hər iki ölkə ordularında strateji kommunikasiyanın, o cümlədən mətbuat və ictimaiyyətlə əlaqələr işinin təşkilinə dair ətraflı fikir mübadiləsi aparılıb, hərbi informasiya sahəsində birgə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Daha sonra türkiyəli nümayəndələr mətbuat xidməti, hərbi nəşriyyat, “Azərbaycan Ordusu” qəzetinin redaksiyası, Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin fəaliyyəti ilə tanış olublar.

# “Biz balaca dövlətik...”



**Ötən həftə İran İsrailə yüzlərlə pilotsuz uçuş aparatları (PUA) və ballistik raketlərlə hücum edib. Hücum İsrailin İranın Suriyanın paytaxtı Dəməşq şəhərində yerləşən konsulluq binasına hücumuna cavab olaraq həyata keçirilib.**

Dağ yəhudilərinin Tel-Əvivdəki icma rəhbəri, ravvin Şmuel Simantov Modern.az-a İsraildə son vəziyyət haqqında danışıb. O bildirib ki, İsraildə hər şey öz qaydasında davam edir: “İsraildə hazırda vəziyyət öz axarı ilə davam edir. Məktəblər, bağçalar, iş yerləri fəaliyyətini bərpa edib”.

Simantovun sözlərinə görə, xarici mətbuatda qeyd edilir ki, İran daxili auditoriyanı sakitləşdirmək üçün belə hücum hazırlayıb: “Amma bu, reallığı əks etdirmir. Heç bir dövlət öz silahını rüsvay etməz. İsrail bununla bağlı əvvəlcədən məlumat vermir. Çünki biz balaca bir dövlətik, bu gün ölkənin bir başından silah atsan, digər ucuna çatar. İsrailin cavabının necə olacağını demək hələ bizim üçün tezdir. Bu gün İranın ən böyük məqsədi İsraili məhv etməkdir. Dünya siyasətində öz yerini tutmaq üçün digər dövlətlərdən İsrailə qarşı istifadə edir. İzləsəniz, görərsiniz ki, İran həmişə özünü qabağa vermir. Bütün ərəb dövlətlərini öz siyasətinə daxil etmək istəyir. Bu gün də bəzi ərəb ölkələrini İsrailə qarşı qaldırmaq istəyirdi. Amma İordaniya kimi müsəlman ölkəsi İrana qarşı oldu".

# Boykotçu müxalifətin "21 aprel oyunu və bir armud..."

**Aprelin 15-də müxalifətin mitinqinin keçirilməsi üzrə Təşkilat Komitəsinin adından Bakı Şəhər İcra Hakimiyyətinə bildiriş göndərilib. "Yeni Müsavat"ın siyasət şöbəsi yazır ki, bildirişdə etiraz aksiyasını aprelin 21-də keçirmək niyyəti ifadə olunub.**



## Akif Nağı: "Xalqımız bir daha dələduzlara inanıb, onların arxasınca getməsin"
## Abutalıb Səmədov: "Onların başında 90-cı illərin havası qalıb"
## Elşən Musayev: "Əli Kərimli kimi siyasi qolçomaqların maskası çoxdan cırılıb"

Aksiya siyasi məhbusların azad edilməsi, seçki islahatlarının aparılması, Rusiya hərbçilərinin Qarabağdan çıxarılması, Azərbaycanla Avropa İttifaqı arasında yeni sazişin imzalanması, quru sərhədlərin açılması, maaşların, pensiyaların artırılması, uşaq müavinətlərinin müəyyən edilməsi tələbləri ilə keçirilir. Mitinqin aprelin 21-də saat 15:00-dan 17.00-dək üç yerdən birində keçirilməsi nəzərdə tutulur: "28 May" metro stansiyasının qarşısındakı meydan, "Nərimanov" metro stansiyasının qarşısındakı meydan və "Məhsul" stadionu. Şəhər administrasiyasına müraciəti Demokratik Qüvvələrin Milli Şurasının üzvü Vidadi Mirkamal, Xalq Cəbhəsi Partiyasının şöbə müdiri Saqif Qurbanov, Xalq Cəbhəsi Partiyası Ali Məclisinin sədri Nurəddin Məmmədli, Xalq Cəbhəsi Partiyası Rəyasət Heyətinin üzvləri Məmməd İbrahim və Bəxtiyar İmanov, Azərbaycan Demokratiya və Rifah Partiyası İdarə Heyətinin üzvü Hüseyn Məlik imzalayıblar.

**Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli** Pravda.az-a deyib ki, Milli Şuranın aprelin 21-nə mitinq təyin etməsinə zərurət yoxdur. "Siyasi məhbus" adlandırdıqları şəxslərin azadlığa buraxılması özlərinin şəxsi təşəbbüsüdür", - T.Kərimli qeyd edib. Deputat bildirib ki, kütləvi tədbirlər keçirmək konstitusiyada nəzərdə tutulan hüquqdur: "Hazırkı halda mitinqə ehtiyac yoxdur. Milli Şuranın mitinqi cəmiyyətdə xaosu, "demokratik imic" yaratmaq naminə Azərbaycanda qarışıqlığı daha da artıra bilər. Hələ ki pandemiya şərtləri, karantin rejimi bitməyib. Sərhədlər də buna görə bağlıdır. Karantin rejimi şəraitində buna icazə veriləcəkmi? Şübhə edirəm..."

Qeyd olunur ki, "28 May" və "Nərimanov" metro stansiyalarının qarşısındakı meydan aksiyalar üçün uyğun yer deyil. Amma zamanında müxalifət bu kimi mitinq taktikasından istifadə edib. Belə ki, həmin meydanlar metronun yaxınlığı olduğu üçün əslində bəllidir ki, icazə verilməyəcək aksiyada iştirak etmək istəyənlərin sayını müəyyənləşdirmək çətin olur. Üstəlik, həmin ərazilərdə heç nədən xəbəri olmayan vətəndaşların həbs edilmək riski yaranır ki, bu da müxalifətə sərf edir. Bu, polisin qanunsuz aksiyanın qarşısını almağına da ciddi əngəl yaradır. "Məhsul" stadionuna gəlincə, ora mübahisəli ərazi kimi hazırda məhkəmə araşdırması predmetidir və təmir davam etməkdədir. Daha bir iddiaya görə, müxalifət mümkün parlament seçkilərinə də qatılmaq istəmir. O səbəbdən vəziyyəti gərginləşdirməklə yay ayı üçün keçirilə biləcək seçkilərin təxirə salınmasına çalışırlar. Düşüncələrinə görə, bu cür aksiyalar iqtidarı parlament seçkilərini ertələməyə sövq edə bilər.

"Özünü "Milli Şura" adlandıran dərnəyin aprelin 21-nə mitinq təyin etmək qərarı "sapı özümüzdən olan balta"ların xaricdəki himayəçilərindən aldığı sifarişdir. Onlar xarici dairələrin əlində əsirə çevrilən siyasi nökərlərdir. Çünki Azərbaycan dövlətinə təzyiq etməklə gücü çatmayan qüvvələr indi daxildəki əlaltıları vasitəsilə gərginliyə səbəb olmaq istəyindədir. Amma onların arzusu gözündə qalacaq". Bu sözləri Tribunainfo.az-a **deputat Məşhur Məmmədov** deyib. Onun sözlərinə görə, bu antimilli ünsürlər öz sosial bazasına güvənirsə, mitinq üçün Qaradağ rayonunda ayrılan yerə toplaşa bilərlər: "Heç 200 adamı ora yığa bilməzlər". Deputat bildirib ki, son prezident seçkisində də müxalifətdən namizədlər iştirak etdilər və onlara seçicilərlə görüşdə bütün şərait yaradıldı: "Seçkidə iştirakdan imtina edən bu siyasi oyunbazlar indi şouya hazırlaşırlar".

**Azad Vətən Partiyasının sədri Akif Nağının fikrincə, məqsədlərini də dolaşıq şəkildə izah edirlər ki, guya "demokratik seçki keçirib" "xalqı xilas etmək" istəyirlər:** "O quruma rəhbərlik edənlərin bir hissəsi vaxtilə parlamentə düşüb, indi vicdanları qalıbsa, bir xatırlasınlar, görək parlamentə hansı pəncərədən, hansı arxa qapıdan düşmüşdülər? İndi yenə də parlamentə düşmək istəyirlər, hay-küy salıb hakimiyyətdən parlamentdə yer qopartmaq həvəsinə düşüblər? Xalq doğrudanmı bir daha bunların felinə aldanıb mitinqlərə gedəcək?". **A.Nağının sözlərinə görə, onlardan biri 1993-cü ildə məsul vəzifə tuturdu, jurnalist ondan soruşdu ki, niyə Qarabağı azad edə bilmədiniz, Kəlbəcər də getdi:** "O da qayıdıb cavab verdi ki, xalq ölümə getmədi, vuruşmadı, ona görə qalib gələ bilmədik. O vaxt 20 min şəhid vermiş xalqı bu cür təhqir edirdi, indi "əziz xalqım" deyib köməyə çağırır. Bu qədər mənəviyyatsızlıq olmaz! Mitinq keçirmək hər kəsin haqqıdır. Amma xalqa həqarət edənlər, xaricdən, o cümlədən ermənilərdən sifariş alanlar, ermənilərlə işbirliyi yapanlar bu haqqı artıq itiriblər. İstərdik ki, xalqımız bunu başa düşsün, bir daha dələduzlara inanıb, onların arxasınca getməsin, onların yalançı hay-küylərinə uymasın".

**Alyans Araşdırmalar Mərkəzinin sədri Abutalıb Səmədov isə belə hesab edir ki, 80-ci illərin sonu, 90-cı illərin əvvəlində mitinq keçirmək məcburiyyət idi:** "Çünki bu qədər televiziya kanalı yox idi. Müxalifət sözünü ancaq meydanlarda deyə bilirdi. İndiki halda mitinq təyin edən adamlar nədənsə çoxsaylı televiziya kanallarından istifadə etmirlər. Əli Kərimli yalnız bir kanalda çıxış edir. Düşüncələrini, proqramlarını, təkliflərini çıx kanallara de, hamı səni eşitsin. Bunun üçün mitinq təyin etməyə nə ehtiyac var? Təəssüf ki, uzun illər mitinqlərə hakimiyyətə təzyiq göstərmək, hakimiyyəti dəyişmək vasitəsi kimi baxılıb. Onların başında 90-cı illərin havası qalıb. Azərbaycana düşmən olan qüvvələr bundan istifadə etməyə çalışacaqlar. Əlbəttə ki, buna nail ola bilməyəcəklər".

**Deputat Elşən Musayev isə hesab edir ki, mitinq xarici sifarişdir:** ""Milli Şura" adlanan antimilli qurumun, konkret olaraq yaramaz Əli Kərimlinin mitinq təşəbbüsü xarici qüvvələrin birbaşa təhriki və təlimatı ilə ərsəyə gələn icraatdır. Daha dəqiq desəm, mesaj konkret dairələrdən ötürülüb və bu satqınlar da dərhal hərəkətə keçiblər, yenə maşa və zurna züyü olmağa qərar veriblər. Hazırki durumda mitinq və aksiya şousu ilə su bulandırmağa, siyasi sabitliyi pozmağa cəhd etmək birmənalı şəkildə milli maraqlara xəyanətdir. Həmin xəyanəti edənlər isə fəaliyyətlərinə, xislətlərinə yaxşı bələd olduğumuz ünsürlər, xainlər, satqınlar, sapı özümüzdən olan baltalar və nəhayət: kardaşyan irsinin davamçılarıdır!" E.Musayevə görə, mitinq **söhbəti təbii ki, imitasiyadır: "Oyundur. Görüntüdür. Və pərdə arxasındakı bütün məqsədlər, məramlar sadəcə və sadəcə Azərbaycana ziyan vurmağa, zərbə yetirməyə hesablanıb. Fəqət alınmayacaq".**

"Regionda baş verən hazırkı proseslər, mövcud geostrateji vəziyyətdə Azərbaycanda kütləvi etiraz aksiyalarına çağırışlar etmək yalnız Ermənistana və ona dost, qardaş olan ölkələrə sərf edir".

Bunu **Milli Məclisin deputatı, Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə** "Sputnik Azərbaycan"a ölkənin radikal müxalifətini birləşdirən Milli Şura rəhbərliyinin mitinq çağırışlarına münasibət bildirərkən deyib. O qeyd edib ki, Ermənistan və onunla dost olan ölkələr üçün regiondakı hazırkı proseslərin, eləcə də diqqətin başqa istiqamətə yönəldilməsi çox vacibdir. Azərbaycandakı heç bir siyasi qüvvə buna alət olmamalıdır.

Millət vəkili əlavə edib ki, Ermənistanla sərhədlərin demarkasiya və delimitasiyası, həmçinin regionda uzunmüddətli sülhün yaradılması istiqamətində işlərin getdiyi, ölkədə COP29 kimi dünya əhəmiyyətli tədbirlərin planlaşdırıldığı bir vaxtda belə çağırışlar Azərbaycana arxadan zərbə vurmaqdan başqa bir şey deyil.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 64 (8437) 17 aprel 2024

# Erməni yalanı BMT Ədalət Məhkəməsində

## "Ermənistan Azərbaycana qarşı" məhkəmə işi üzrə 19 aprelədək, "Azərbaycan Ermənistana qarşı" məhkəmə işi üzrə isə aprelin 22-dən 26-dək ictimai dinləmələr keçiriləcək

**Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ədalət Məhkəməsində "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyaya əsasən "Ermənistan Azərbaycana qarşı" məhkəmə işi üzrə aprelin 15-dən 19-dək, eyni iddia əsasında "Azərbaycan Ermənistana qarşı" məhkəmə işi üzrə isə aprelin 22-dən 26-dək ictimai dinləmələr keçiriləcək. Bu barədə Beynəlxalq Ədalət Məhkəməsinin rəsmi internet saytında məlumat yayılıb.**

Xatırladaq ki, 2021-ci il sentyabrın 16-da Ermənistan Azərbaycana qarşı, 2023-cü il aprelin 21-də Azərbaycan Ermənistana qarşı ilkin iddia qaldırıb.

"Azərbaycan əraziləri 1991-1994-cü illərdə Ermənistan tərəfindən qeyri-qanuni zəbt edilib və BMT Təhlükəsizlik Şurasının çoxsaylı qətnamələri pozularaq 30 ildən artıq işğal altında qalıb".

Bunu Azərbaycanın Ermənistana qarşı iddiası ilə bağlı keçirilən dinləmələrdə **xarici işlər nazirinin müavini Elnur Məmmədov** deyib. Xarici işlər nazirinin müavini Ermənistanın 22-ci maddə üzrə öhdəliklərinə əməl etmədiyini bəyan edərək, Beynəlxalq Ədalət Məhkəməsinə etdiyi müraciətin rədd edilməli olduğunu qeyd edib. Bundan əlavə, nazir müavini deyib ki, Ermənistanın üçüncü müraciəti bu konvensiyanın yurisdiksiyasına aid deyil və bu, iddianın mahiyyəti üzrə rədd edilməsini tələb edir. Onun sözlərinə görə, 22-ci maddə o deməkdir ki, mübahisə danışıqlar yolu ilə həll olunmazsa, məhkəməyə verilə bilər.

Xarici işlər nazirinin müavini bildirib ki, Ermənistanın üçüncü şikayətində hərbi münaqişə zamanı erməni əsgərlərinə, hərbi qulluqçularına və mülki şəxslərə qarşı pis rəftarla bağlı əsassız ittihamlar yer alıb və Azərbaycan bunu qəti şəkildə qəbul etmir.

"Bu məsələlər İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq Konvensiyaya əsasən məhkəmənin yurisdiksiyasına daxil deyil", - nazir müavini bildirib.

E.Məmmədovun sözlərinə görə, Azərbaycan bütün məhbus və hərbi əsirlərin demək olar ki, hamısını Ermənistana qaytarıb, ağır cinayətlərdə təqsirləndirilən şəxslərin yalnız bir neçəsi həbsdədir və ya onlar barəsində istintaq aparılır.

Beynəlxalq Ədalət Məhkəməsi (ICJ) Birləşmiş Millətlər Təşkilatının əsas məhkəmə orqanıdır. 1945-ci ilin iyununda Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi ilə yaradılıb və 1946-cı ilin aprelində fəaliyyətə başlayıb. Məhkəmə Baş Assambleya tərəfindən doqquz il müddətinə seçilən 15 hakimdən ibarətdir.

Dinləmələrin əhəmiyyəti və verdiyi qərarlar nə ola bilər?

**Deputat Kamran Bayramov "Yeni Müsavat"a dedi ki, ictimai dinləmələrin keçirilməsi əslində Azərbaycan tərəfinin ermənilərin iç üzlərini açması üçün fürsətdir:** "Erməni həyasızlığının son həddidir ki, öz ərazisindən 200 mindən artıq soydaşımızı qovasan, sonra Azərbaycanın ərazilərinin təxminən 20 faizini işğal edib insanları əsir götürəsən, öldürəsən və nəticədə bir milyona yaxın insanı qaçqın halına salasan. Sonra da həyasızcasına Azərbaycanı irqi ayrı-seçkilikdə ittiham etmək üçün cəhdlər edəsən. Dinləmələrdə Azərbaycanı təmsil edəcək rəsmilərin əllərində kifayət qədər sənədlər, arqumentlər, faktlar var ki, Ermənistanı insanlıq əleyhinə fəaliyyətdə ittiham etsinlər, irqi ayrı-seçkiliyin başında məhz onların durduğunu göstərsinlər".

**Deputat diqqətə çatdırdı ki, Beynəlxalq Ədalət Məhkəməsində Ermənistan tərəfinin qaldırdığı iddia qabaqdangəlmişlikdən və riyakarlıqdan savayı bir şey deyil:** "Azərbaycan tərəfi təqdim edilmiş müfəssəl sübutlar əsasında azərbaycanlıların hüquqlarının geniş şəkildə pozulmasına görə Ermənistanın məsuliyyət daşıdığına dair vəsatətin təmin olunmasını məhkəmədən tələb edib. Xüsusilə etnik təmizləmə, o cümlədən qəsdən həyat və mülkiyyət hüququndan məhrumetmə, işgəncə, mədəni irsin məhvi, erməni əhalisi arasında azərbaycanlılara qarşı nifrətin təbliği və Ermənistanda nifrət zəminində yaradılmış silahlı qruplara dövlət yardımı ilə bağlı Ermənistan hökumətinin məsuliyyət daşıdığının bəyan edilməsi üçün müraciət ünvanlayıb. İstənilən halda dinləmələrin Azərbaycan tərəfinin şikayətinin daha əsaslı və reallığı əks etdirən faktlarla müşayiət olunacağı şübhəsizdir. Ermənilərin isə Azərbaycanı ittiham edən şikayətinin şər-böhtan olmasını prosesləri az-çox bilən istənilən beynəlxalq mütəxəssis yaxşı bilir. Ancaq təəssüflər olsun ki, xaricdə, o cümlədən BMT institutlarında müəyyən güclər var ki, onlar Azərbaycanı ittiham etmək üçün hər zaman müxtəlif səbəblər axtarışındadırlar və o səbəbdən ermənilərin yalanlarından belə istifadə edə bilərlər. Amma mövqelərimiz və sübutlarımız kifayət qədər güclü, tutarlı və aydın olduğundan belə dinləmələrlə heç nəyə nail ola bilməyəcəklər. Yalançı iddiaları irəli sürməkdə Ermənistanın məqsədi odur ki, gələcəkdə onları gözləyən ağır aqibətdən yayınsınlar. Çünki gözəl başa düşürlər ki, Ermənistan günlərin birində Beynəlxalq Ədalət Məhkəməsində törətdiyi bütün cinayətlərə görə cavab verəcək və təzminat ödəyəcək. Bu səbəbdən də Ermənistan qabaqdangəlmişlik edərək prosesləri önləməyə çalışır. Amma alınmayacaq! Qanundan və ədalətdən qaçış yoxdur! İnanıram ki, tezliklə Azərbaycan bütün cəbhələrdə olduğu kimi, yenə də Zəfər qazanacaq".

**AMİP sədrinin beynəlxalq əlaqələr üzrə müavini Elşən Mustafayev bunun özünü Azərbaycan üçün bir təbliğat hesab edir:** "Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ədalət Məhkəməsinə həm Ermənistanın, həm də Azərbaycanın müraciətləri hər iki tərəf üçün prinsipal olmaqla diqqət mərkəzində olub. Ən əsası bu müraciətlərin daxil olduğu məhkəmənin özündə belə narahatlıq hökm sürür. Belə ki, 32 il əvvəl Azərbaycan ərazilərini işğal etmiş, insanları qətlə yetirmiş, ölkənin 20 faiz ərazisində etnik təmizləmə aparmış, götürdüyü minlərlə əsirin bir çoxunu fiziki olaraq məhv etmiş Ermənistan öz ərazilərini azad etdiyinə görə gülünc və saxta ittihamlarla Azərbaycanı məhkəməyə verir və hakimlər çıxılmaz vəziyyətdə qalır. Əgər kənardan siyasi məqsədlərdən dolayı məhkəməyə təzyiqləri görməyəcəyiksə, eyni zamanda işə baxacaq hakimlərin mövqeləri erməni tərəfində olmayacaqsa, o zaman hər iki tərəfin müraciətinə ədalətli qaydada baxıla və Azərbaycanın müraciətinə ümumilikdə müsbət cavab verilə bilər. Amma hazırkı durumda həm erməni təəssübünü çəkən böyük güclər olduğundan eyni zamnda Azərbaycanı regionda apardığı müstəqil siyasətdən dolayı cəzalandırmaq istəyənlər müxtəlif vasitələrlə məhkəməyə təzyiq etməyə çalışacaqlar. Amma nə qədər təzyiqlər olsa da düşünürəm ki, ortada 28 illik işğal faktorunu kənara qoyub Azərbaycanla bağlı neqativ qərar qəbul etmək asan olmayacaq. Həmçinin Azərbaycanın sübut və faktlarla təqdim etdiyi analoji müraciətə də göz yuma bilməzlər və vəkillər bütün vasitələrlə həmin müraciətin müdafiəsinə çalışacaqlar. Ermənistanın müraciətinə bizim müraciətdən bir neçə gün qabaq baxılacaq. Amma hər iki tərəfin müraciəti ilə hakimlər öncədən tanış olduğundan və Azərbaycan tərəfinin təqdim etdiyi sənədlərin daha tutarlı, etibarlı olduğunu bildiklərindən Ermənistanın müraciətini təmin edəcəklərinə inanmıram. Təəssüf ki, Azərbaycanın da müraciətinə ədalətli baxılacağına inamım azdır. Amma məhkəmə hər iki tərəf üçün tövsiyə xarakterli hansısa rəylərini verə bilər. Hansı ki, bu bizim üçün ədalətsiz mövqe kimi qəbul olunacaq. Amma hesab edirəm ki, belə məhkəmələr gələcəkdə hələ çox olacaq və Azərbaycan tərəfi bütün istiqamətlər üzrə şikayət və müraciətlərini yenə də edəcək".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**






Mariya Peyçinoviç Buriçin
Fəxrəddin İsmayılov

## Azərbaycan səfiri Avropa Şurasının baş katibi ilə nədən danışıb?

**Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi, səfir Fəxrəddin İsmayılovun Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriçinlə görüşündə ölkəmizlə bu qurum arasındakı gərginlik müzakirə olunub.**

Bu barədə Gununsesi.info-ya Avropa Şurasındakı mənbələr bildirib.

Qeyd edək ki, Azərbaycanın qurumdakı daimi nümayəndəsi baş katiblə görüşdə Azərbaycan tərəfindən Avropa Şurası Parlament Assambleyasının ratifikasiyasına dair Əlavə Protokolun təsdiq edilməsi haqqında sənədi təqdim edib.

Mənbəmizin məlumatına görə, AŞ-nin Baş katibi səfirlə söhbətində Azərbaycanda həllini tapmalı olan problemləri qabardıb və səfirin bunları hökumətin diqqətinə çatdırmasını xahiş edib.

Bildirilir ki, Mariya Peyçinoviç Buriçin Azərbaycanın Avropa Şurası ailəsinin üzvü olduğunu vurğulamaqla yanaşı, ölkəmizin bu qurum qarşısındakı öhdəliklərinə sadiq qalmalı olduğunu da dilə gətirib.

Qeyd edək ki, 2024-cü ilin ilk sessiyasında AŞ PA Azərbaycanın qurumdakı deputat qrupunun mandatını təsdiqləməkdən imtina edib. Buna səbəb kimi son zamanlar media nümayəndələrinin və siyasi fəalların həbsi göstərilib.

Azərbaycan hökuməti isə iddia edir ki, Qarabağ üzərində suverenliyimizi bərpa etməyimiz Avropa Şurası və bir sıra təşkilatların qərəzinə səbəb olub.

Yada salaq ki, Strasburqda Avropa Şurası Parlament Assambleyasının sessiyası öz işinə başlayıb. AŞ PA-nın Ukrayna Parlamentindən olan təmsilçisi Oleksiy Qonçarenko Azərbaycanla Avropa Şurası arasındakı gərginlikdən danışıb.

Azərbaycan nümayəndə heyətinin mandatının təsdiq olunmamasından təəssüfünü bildirən Oleksiy Qonçarenko deyib ki, bu yolla Azərbaycanda insan haqları probleminin həllinə nail olmaq çətindir: "Azərbaycanla bu məsələləri təşkilat daxilində həll etmək lazımdır. Uzaqlaşdırmaq doğru deyil. Mövcud durum İranı və Rusiyanı sevindirir.

Təşkilat daxilində bütün mövzuları müzakirə edərək nəticə əldə etmək mümkündür. Kənarlaşdırmaqla nəticə əldə etmək olmur. Mən yanvar sessiyasında da demişdim ki, Azərbaycanla Avropa Şurası ortaq nöqtə taparaq, problemi aradan qaldırmalıdır".

YENİ MÜSAVAT
N 64 (8437) 17 aprel 2024

# "Yeni parlament keçid dövrü üçün olacaq"

## Qüdrət Həsənquliyev: "Düşünmürəm ki, 2024-cü ildə keçiriləcək seçkilər zamanı formalaşdırılacaq parlament 5 il fəaliyyət göstərəcək"

**Deputat, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini, Ədalət, Hüquq və Demokratiya Partiyasının sədri Qüdrət Həsənquliyev "Yeni Müsavat"a geniş müsahibə verib, gözlənilən parlament seçkiləri və bir çox məsələlərdən danışıb.**

**- Qüdrət bəy, partiyanız yeni adla Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alındı. Ədalət, Hüquq və Demokratiya BAXCP-dən nə ilə fərqlənəcək?**

- Əslində heç nə ilə fərqlənməyəcək. Bizim nə nizamnamədə, nə də partiyanın proqramında heç bir dəyişiklik baş verməyib. Dəyişiklik yalnız partiyanın adındadır. Biz artıq bunun izahatını ictimaiyyətə vermişik ki, Xalq Cəbhəsi Qarabağ hərəkatından doğdu. Sonradan o, milli azadlıq hərəkatı xarakteri aldı. Görəndə ki, Moskva ədalətli mövqe tutmur, erməni separatçılarına gizlin, bəzən açıq dəstək verir, bundan sonra Qarabağ hərəkatı milli azadlıq hərəkatı oldu. 1989-cu ildə AXC yarananda da Xalq Cəbhəsi sözü Pribaltika respublikalarından götürüldü. Bu da özündə bunu ehtiva edirdi: xalqı birləşdirmək, həm Azərbaycanın müstəqilliyini əlindən almış Moskvaya qarşı, həm də erməni separatizminə və işğalçı Ermənistana qarşı. Hazırda Xalq Cəbhəsinin yaranmasını şərtləndirən əsasların ikisi də aradan qalxıb. Etiraf edək ki, əgər AXC-nin Azərbaycanın müstəqilliyinin əldə olunmasında müstəsna xidmətləri olmuşdusa, yaranmasında əsas səbəbkar olan məsələ - Azərbaycanın ərazi bütövlüyünü qorumaq missiyasını Yeni Azərbaycan Partiyası, İlham Əliyevin liderliyi ilə yerinə yetirdi. Yəni Xalq Cəbhəsi klassik mənada öz missiyasını başa vurub. Əlbəttə, Xalq Cəbhəsinin proqramında ölkənin demokratikləşməsi də var idi, Azərbaycana Qərb siyasi dəyərlərinin, dövlət hakimiyyətinin idarə olunmasının gətirilməsi də var idi, onlar olduğu kimi qalır. Biz o zaman BAXCP-ni yaradanda demişdik ki, Elçibəyin liderliyi ilə iki təşkilat olub: Bütöv Azərbaycan Birliyi və Azərbaycan Xalq Cəbhəsi. Biz bu iki adı özümüzdə birləşdirmişdik. Bütöv Azərbaycan ideyası da xalqımızın əsas amalı kimi həmişə bizim mübarizəmizin, ideya xəttimizin əsasını təşkil edəcək.

**- Yəni heç kim narahat olmasın...**

- Bəli. Heç bir dəyişiklik baş vermir. Sadəcə olaraq, hesab edirik ki, bu gün xalqımızın qarşısında duran ən böyük vəzifə Şimali Azərbaycanı həm də Cənubi Azərbaycan üçün çox cəlbedici edəcək ədalətli bir cəmiyyətin qurulması, hüquqi dövlətin yaradılması, ölkədə demokratiyanın inkişaf etdirilməsidir. Ona görə də bax, bu üç dəyər bizim partiyanın adında öz əksini tapır. Partiyamız Ədalət, Hüquq, Demokratiya adlanır. Bəziləri deyir ədalətli cəmiyyət həm də hüquqi dövlət deməkdir. Amma yox. Hüquqi dövlət qanunların aliliyinin təsbit olunduğu ölkədir. Amma qanunlar ədalətli olmaya bilər. Ona görə də qanunun aliliyi təmin olunmalıdır, ancaq qanunlar ədalətli olmalıdır. Bundan başqa, tutaq ki, tarixdə çoxlu imperatorlar



olub və onlar çox ədalətli oldular. Məsələn, Qanuni Süleyman. Qanunun aliliyi məmləkətdə yüksək səviyyədə təmin edilib, amma demokratiya olmayıb, hakimiyyəti xalq formalaşdırmayıb, o ölkədə rəqabət olmayıb. Biz də hesab edirik ki, inkişafı təmin edən əsas amillərdən biri həyatın bütün sahələrində rəqabətin olmasıdır, istəyir siyasətdə olsun, istəyir iqtisadiyyatda, istəyir mədəniyyətdə və s. Biz hesab edirik ki, həm də demokratiya inkişaf etdirilməlidir. Bu baxımdan partiyamızın qarşısında duran əsas məqsəd budur. Bizim partiya milli demokratik partiyadır, liberal mühafizəkarlardır. Həm milli demokrat, həm liberal mühafizəkarlar olaraq sağ mərkəzçi partiyayıq. Sağ mərkəzçilər olaraq biz cəmiyyətin inkişafını təkamüldə görürük. Biz inqilablar yolu ilə dəyişikliklərdən çəkinirik, bunu zərərli və ziyanlı hesab edirik. Ona görə də sağ mərkəzçi olan partiyamızın əsas məqsədlərindən biri də ölkədə sahibkarlığın inkişaf etdirilməsi, qorunmasıdır. Hesab edirik ki, dövlətin, iqtisadiyyatın inkişafı sahibkarlara diqqət və qayğıdan keçir. Yalnız bu yolla iqtisadiyyatı inkişaf etdirmək, ölkədəki sosial problemlərin öhdəsindən gəlmək olar.

**- Qüdrət bəy, Ədliyyə Nazirliyinin yeni rəhbərliyinin sizin müraciətə operativ şəkildə reaksiya verərək, müsbət cavablandırması Azərbaycanda yeni dövrə keçiddə sizin atdığınız addımlara dəstək sayıla bilərmi?**

- Burada yeni bir partiyanın qeydə alınmasından söhbət getmir ki, bunun üçün Ədliyyə Nazirliyinin kollegiyası toplansın, ciddi araşdırma aparsınlar, partiya üzvlərini yoxlasınlar. Bu, əlbəttə, çox vaxt aparan məsələdir. Burada, sadəcə olaraq, biz ad dəyişirik, idarə səviyyəsində həll olunur və texniki məsələdir. Ona görə də bu, qısa müddətdə həll olunub. Əlbəttə, bir çox hallarda görürük ki, qanunla göstərilən müddətlər aşılır, süründürməçilik olur, biz bunu müşahidə etmədik. Buna görə də Ədliyyə Nazirliyinin yeni rəhbərliyinə də öz təşəkkürümüzü bildiririk. Bilirsiniz ki, Azərbaycan Prezident Administrasiyasında Siyasi partiyalarla iş şöbəsi yaradılıb. Biz zamanında bunu çox mütərəqqi bir addım kimi qiymətləndirmişik. Bizim birbaşa Prezident Administrasiyası ilə mütəmadi əməkdaşlıq, əlaqə saxlamaq imkanlarımız var. Vacib deyil ki, hər dəfə Ədalət müəllimin (Ədalət Vəliyevlə - E.P.) özü ilə əlaqə saxlayaq. Amma o şöbənin əməkdaşları, müavinlərlə mütəmadi əlaqə saxlamaq imkanlarımız var. Əgər hansısa bir dövlət orqanı tərəfindən siyasi partiyanın fəaliyyətinə problem yaradılırsa, yersiz süründürməçiliyə yol verilirsə, biz problemləri Prezident Administrasiyası səviyyəsində də çözə bilirik. Bu baxımdan partiyamızla bağlı heç bir problem olmadı və zamanında ad dəyişikliyi qeydə alındı.

**- Yeri gəlmişkən, ötən müsahibəmizdə ədliyyə naziri Fərid Əhmədovla bağlı müəyyən gözləntilərinizi bölüşmüşdünüz, ümidlərinizi ifadə etmişdiniz... Artıq gözləntilərin doğrulduğunu demək olar?**

- Səmimi deyirəm ki, texniki məsələ olsa da, zamanında dövlət orqanlarının öz vəzifələrini yerinə yetirməsini mən çox müsbət qiymətləndirirəm. Mən yeni nazirlə ilk dəfə Baş Prokurorluğun təşkil, baş prokuror Kamran Əliyevin moderatorluq etdiyi "Rəqəmsal cinayət prosesi-müasir çağırışlar və hədəflər" mövzusunda konfransda görüşdüm. Açılış nitqi ilə çıxış edənlərdən biri də o idi. Mən onun çıxışına da diqqətlə qulaq asdım. Əvvəllər də söyləmişəm ki, o, kifayət qədər nüfuzlu universitetlər bitirib, hüququn fəlsəfəsini, qanunvericiliyi bilən adamdır. Onu da demişdim ki, biz zamanla onun fəaliyyətinə baxıb, qiymət verəcəyik. Yəni insanın savadlı olması o demək deyil ki, həmin şəxs öz vəzifələrini layiqincə yerinə yetirəcək, təmənnasız fəaliyyət göstərəcək və sair. Zamanla biz onun xalqımız, dövlətimiz üçün nə dərəcədə faydalı olacağını, bu dəyişikiyin ölkəmiz üçün nə dərəcədə xeyirli olacağını müəyyənləşdirəcəyik.

**- Əsl seçki havasıdır. Siz necə düşünürsünüz?**

- Bəli, sözsüz, seçkilər yaxınlaşır. Hesab edirəm ki, bir neçə ay vaxt qalır. Noyabrda seçkilər olmalıdır. Biz bilirik ki, sentyabrın ortalarında "Formula-1" yarışları keçiriləcək. Fikrimcə, Formula yarışlarınadək, sentyabrın ortalarına qədər sağlam və siyasi məntiq parlament seçkilərinin keçirilməsinin zəruriliyini diqtə edir. Böyük ehtimalla, hökumət də bu mövqedən çıxış edəcək və həm "Formula-1"dək, həm COP29-a qədər ölkədə seçkilərin keçirilməsini təmin edəcək. COP29-un əsas tədbirinin noyabrın 22-də keçiriləcəyini nəzərə alsaq, seçkilərin vaxtında keçirilməsi ehtimalı da var. "Formula-1" 13-15 sentyabrda keçiriləcəksə, düşünürəm ki, sentyabrın 10-dək seçkilər keçirilə bilər. İki ay tez və ya gec heç nəyi dəyişmir.

**- Sizə rəsmi, yaxud qeyri-rəsmi nəsə deyilibmi?**

- Yox, hər hansı bir məlumat yoxdur. Sadəcə olaraq, ehtimallardır.

**- Qüdrət bəy, sizcə, budəfəki seçkilər əvvəlkilərdən nələrlə fərqlənəcək?**

- Sözün doğrusu, mən istəyərdim ki, ölkədə öncə konstitusiya islahatları həyata keçirilsin və sonra parlament seçkilərinə gedilsin. Amma artıq zaman yoxdur. Konstitusion müddəti də pozmaq olmaz. Yəni parlamentin fəaliyyətini 5 ildən artıq uzatmaq olmaz. Yalnız ölkədə hərbi vəziyyət olduqda müddət uzadıla bilər. Amma ölkədə konstitusion islahatlar da qaçılmazdır, buna çox böyük ehtiyac var. Düşünmürəm ki, 2024-cü ildə keçiriləcək seçkilər zamanı formalaşdırılacaq parlament 5 il fəaliyyət göstərəcək. Yəni belə bir ehtimal azdır, amma 5 il fəaliyyət göstərə də bilər.

**- Kifayət qədər sensasion yanaşmadır. Nəyə əsasən belə deyirsiniz?**

- Ona görə ki, konstitusiya islahatlarına ehtiyac var. Ölkədə dövlət idarəetməsi təkmilləşdirilməlidir.

**- Yəni budəfəki çağırış keçid dövrünün parlamenti olacaq?**

- Bəli. Mən düşünürəm ki, 2025-ci ildə ölkədə referendum keçirilsə və yeni konstitusiya qəbul olunsa da - buna çox böyük ehtiyac var, 1995-ci ilin konstitusiyası keçid dövrünün konstitusiyası idi - ölkədə yenidən parlament seçkilərinin keçirilməsinə ehtiyac olacaq. Ola bilsin konstitusiyada qeyd oluna bilər ki, konstitusiyanın parlament seçkilərinə aid olan hissəsi növbəti parlament seçkilərindən sonra, yəni 2029-cu ildən sonra tətbiq olunur. Yəni belə ehtimal da var. Amma zamanı o qədər uzatmağın da adı yoxdur. Ona görə ki, cəmiyyət inkişaf edir. Biz 33 ildir dövlət müstəqilliyimizi əldə etmişik, amma dövlət idarəetməsi təkmilləşməyib. Baxmayaraq ki, cəmiyyət çox sürətlə irəli gedib, inkişaf edib. 1991-ci illə indiki dövrü müqayisə edin. O vaxt heç mobil telefonlar yox idi. Görün bu 33 il ərzində dünya haradan-haraya inkişaf edib. O baxımdan dövlət idarəetməsində mütləq yeniliklər olmalıdır. Şərait də göstərir ki, bizdə həm dövlət aparatı şişib, bir çox dövlət orqanlarının funksiyaları üst-üstə düşür, optimallaşdırma, struktur islahatları aparmaq lazımdır. Ona görə də yeni konstitusiyanın qəbulu zərurətdir. Məhkəmə hakimiyyətinin, parlamentin rolu artırılmalıdır. Yeni konstitusiyada vitse-prezidentlik institutu saxlanılacaqsa, Nazirlər Kabineti ləğv olunmalıdır. Hökumət üzvləri parlamentin razılığı ilə vəzifəyə təyin olunmalı, onlara Milli Məclis tərəfindən etimadsızlıq ifadə olunduqda vəzifələrindən azad olunmalıdırlar. Konstitusiyada parlamentdə siyasi fraksiyaların yaradılmasını təmin edən mexanizmlər yaradılmalı, proporsional seçki sistemi bərpa olunmalı, Milli Məclisə geniş səlahiyyətlər verilməlidir. Parlament hökumət üzərində normal nəzarət funksiyasını yerinə yetirə bilməlidir. Bizim indiki nəzarətimiz ildə bir dəfə hökumətin hesabatını dinləməkdir. Amma Hesablama Palatasından kənar parlamentin müvafiq komitəsini yaratmaqla birbaşa nəzarət mexanizmi yaradılmalıdır. Əlbəttə, bizim partiyanın mövqeyi, ümumiyyətlə, ondan ibarətdir ki, parlamentli respublika modelinə keçək. Amma inanmıram ki, YAP hakimiyyətdə olduğu dövrdə buna getsin. Ona görə də ən azından məhkəmə və qanunverici orqanın səlahiyyətləri genişlənməli, məhkəmələrin qismən də olsa, müstəqilliyi təmin edilməli, hakimiyyətin qanadlarının bir-birinə qarşılıqlı nəzarət mexanizmi yaradılmalıdır. Köklü islahatlar aparmadan güclü iqtisadiyyat qurmaq, iqtisadiyyatda neftdən asılılığa son qoymaq, vətəndaş məmnunluğuna söykənən güclü hüquqi dövlət qurmaq mümkün olmayacaq.

**❑ Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 64 (8437) 17 aprel 2024



# Paketdə dialoq

Zamin HACI
zaminhaci@gmail.com

*"Hərdən istəyirəm mən də tac qoyum,*
*Səndən acıq çıxım, səni ac qoyum,*
*Yan-yana məhləmdə beş qarac qoyum,*
*Rüşvəti "tem bolee" paketnən gedir,*
*Bəşər gələn əsrə raketnən gedir,*
*Bizimkilər motosikletnən gedir".*
**(Baba Pünhan)**

**Naxçıvanda maliyyə naziri işləmiş, dövlət büdcəsi pullarını qanunsuz yolla nağdlaşdırıb əkişdirməkdə suçlanan Rafael Əliyevin məhkəməsi gedir. Bugünlərdə prokuror ondan soruşub ki, maliyyə naziri olanda nə qədər paket alırmış, Rafael müəllim ərz edib: "2300 manat maaşım idi. Hər ay isə 15 min manat paket alırdım".**

Tragikomik dialoqdur. Əziz oxucular, fikir verdinizsə həm dövlət ittihamçısı, həm də müttəhim bu "paket mövzusuna" olduqca təbii yanaşır, sanki adi bazar söhbəti edirlər, bir-birindən kartof-soğanın qiymətini soruşurlar. Yoxsa biz - qara camaat üçün bu paket mövzusu əslində anlaşılmazdır. Paket nədir? Köhnə vaxtlarda içində məktub yolladığımız bir şey. Ya da dükanda mal qoyub satılan kağız, müşəmbə. Kulok. O zad ki, artıq neçə vaxtdır uca hökumətimiz onları da bizə 5 qəpikdən sırıyır, guya ekologiyanı qoruyuruq. Nəsə, mövzu bu deyil. Prokuror və müttəhim üçünsə paket anlayışı başqadır. Bu, artıq uzun illərdir ölkəmizdə maaş, pul, rüşvət, haqq (az qaldım bundan sonra "ədalət" də yazım) ödənilməsi üsullarından biridir. Paket gizli iqtisadiyyatımızın simvollarından biridir. Adamların həm rəsmi, həm gizli, qanundan kənar maaşları olur. Bax, həmin gizli maaş və rüşvətlər paketdə verilir. Lap açıq, əldən-ələ verilsə də prosesin adı "paket"dir. Bizdə başqa belə terminlər də var. Məsələn, şapka. Krışa. Obnaliçka. Şirinlik. Və sairə - bunları Narxozda tədris edirlər. Yadıma düşsə yenə yazaram.

Dövlət ittihamçısının Naxçıvanın eks baş maliyyəçisini gizli gəlirlər temasında sorğulaması əladır, dəstəkləyirik, hətta kino işçilərindən xahiş eləyək, bu vicdanlı prokuror haqda növbəti serialı çəksinlər, adını da qoysunlar "Paket mövsümü". Amma işin əmması var.

Problem odur ki, əgər sən haradasa maliyyə nazirisənsə, məntiqlə o yerdə pulların, maaşların dövriyyəsi elə sənin özündən asılıdır. Maliyyə naziri göstəriş verir, büdcədən pullar ayrılır. Bəs görəsən, Naxçıvan maliyyə nazirinin başı üstündə dayanan daha yüksək vəzifəli "pullu oğlan" kim imiş ki, ona hətta paket də verirmiş? Bax, oğul ona deyərəm! Hər ikisinə: həm Naxçıvan maliyyə nazirinə paket verənə, həm də bunu üzə çıxaran prokurora.

Yoxsa indiki halda mövzu bekara mövzudur. "Nə qədər paket alırdın?", "15 min". Kimdən alırdı, haradan alırdı, niyə alırdı, biz niyə almırıq və sairə - əsl mövzu budur. Çünki rəsmi rəqəmlərə dayansaq, hətta indiki inflyasiya və gizli devalvasiya şəraitində də 15 min manat az pul deyil. Bir neçə il qabağa qədər 15 min manat Azərbaycanda dövlət başçısının maaşı idi! (İndi dəqiq bilmirəm). Üstünə 2300-ü də gələndə, belə çıxır Naxçıvanın maliyyə naziri Azərbaycan prezidentindən çox maaş alırmış.

Təbii, hələ məhkəmə gedir, ümid edək növbəti iclaslarda hakim bu qaranlıq işə aydınlıq gətirər, bizim də ürəyimiz sakitləşər. Vətəndaş olaraq biz oğurluq əməllərə pis baxırıq. Halallıq, düzgünlük qanımızdadır. Xalq sərvətini yolun ortasına qoyur, hara istəsə çıxır gedir, səhər gəlib görürsən hamısı yerindədir. Mən özüm dünən Binəqədi tərəfdən keçirdim, mancanaqlar açıq havada, mühafizəsiz-filansız fırlanırdı.

Bir kişinin evindən neft çıxmışdı, bu yaxında. Televiziyaları-zadı çağırıb deyirdi ki, xahiş edirəm hökumət buna əncam çəksin, məni başqa yerə köçürtsünlər. Gör nə qədər vicdanlı vətəndaşdır... Xalqın sərvətinə gözünün ucuyla da baxmaq istəmirdi. Hətta çəkiliş vaxtı burnunu tutmuşdu, deyirdi istəmirəm xalqın sərvətini gizli şəkildə iyləyim, israf edim.

İndi söz əlaqədar təşkilatlarındır. Yazın görüm siz nə qədər paket alırsınız.

---

**Milli Şura Rusiya qoşunlarının Azərbaycandan çıxarılmasını vacib sayır. Bu barədə Demokratik Qüvvələrin Milli Şurasının sədri Cəmil Həsənli aprelin 21-də Bakıda mitinq keçirilməsi ilə bağlı müxalifətin qərarını "Amerikanın səsi" radiosunun Azərbaycan xidmətinə şərh edərkən bildirib.**



# Qərbdən Milli Şuraya "vətənşüvənlik sifarişi"

## Rusiya sülhməramlılarının məsələsinin qaldırılmasının arxasındakı niyyət də bəllidir

"Faktiki olaraq ermənilər Azərbaycan ərazisini tərk edəndən sonra Rusiya ordusunun Azərbaycanda qalmasının anlamı nədir? Hökumət bunun normal izahını verməlidir. Bir müddət uydurdular ki, onlar guya ermənilərdən müsadirə olunan silahları saxlayırlar. Guya bu silahları saxlamağa Azərbaycanın hansısa bir batalyonu yoxdur? Bunu gərək hökmən rus kontingenti saxlasın? İndi də belə bir tezis ortaya atıblar ki, guya bu sülhməramlılar Xocalı və ətraf ərazilərdə minaların təmizlənməsi ilə məşğul olacaq. Əvvəla, mina təmizlənməsi üçün xüsusi hazırlığı olan yarımhərbi təşkilat lazımdır. Bizim bildiyimiz qədər, elə hamının bildiyi qədər bu kontingentdə xidmət edənlərin belə bir hazırlığı yoxdur. Yəni bunlar sülhməramlı kontingent adı ilə gəlib və onların funksiyası tamamilə başqadır. Bunlardan guya mina təmizləyən kimi istifadə etmək Azərbaycan hakimiyyətinin Azərbaycan xalqına dediyi yalanlardan biridir. Sadəcə, bu, rus qoşunu Azərbaycanda saxlamaq cəhdidir. Biz bunu ona görə mitinqin tələblərinə salmışıq ki, Azərbaycan hakimiyyəti izahat versin. Rus qoşununun Azərbaycanda qalma səbəbi aradan qalxdığı halda bu qoşunları niyə indiyədək ölkədə saxlayır. Bu, ölkənin təhlükəsizliyi ilə bağlı məsələdir", - o qeyd edib.

Qeyd edək ki, Rusiya sülhməramlıları 2020-ci ilin 10 noyabr üçtərəfli bəyanatı imzalandıqdan sonra Qarabağda yerləşəndə Milli Şura bəyan edirdi ki, Bakı indən sonra bu bölgəyə nəzarəti tam itirəcək, separatçı rejimi çökdürmək artıq heç cür mümkün olmayacaq və sair. Amma hər şey əksinə oldu, Azərbaycan bu bölgədə suveren haqlarını tam bərpa etdi, hətta ermənilər könüllü çıxıb getdi. Və bütün bunlar Rusiya sülhməramlılarının gözləri qarşısında baş verdi. Azərbaycan dövlətinin öz ərazisində separatizmə qarşı həyata keçirdiyi qanuni əməliyyata sülhməramlılar mane olmadılar. Çünki mane olmaq üçün əsas yox idi. Bu məsələdə Rusiya sülhməramlılarını hədəf seçən ermənilər və erməniləri dəstəkləyən dövlətlər oldu. İndi də ABŞ və Avropa İttifaqı Rusiyanın bölgədən çıxarılması siyasətini aparır və bu sırada sülhməramlılar da var. Halbuki bu, sırf Rusiya və Azərbaycan arasında həll ediləsi məsələdir, 2025-ci ilədək bu barədə qərar veriləcək. Cəmil Həsənlinin dediklərindən isə belə məlum olur ki, Milli Şura populist tələbləri sırasına beynəlxalq rəng vermək üçün Rusiya sülhməramlılarının da məsələsini daxil edib. Bununla da həm də ağalarına xoş getmək, onlardan daha çox pul qoparmaq niyyəti ortadadır.

Bu barədə "Yeni Müsavat"a şərhində **Milli Məclisin deputatı Aydın Hüseynov** bildirdi ki, Milli Şura adlanan marionet qrup Azərbaycanı Qərbin platsdarmı etmək istəyir. Çünki onlar hesab edirlər ki, belə olarsa, Qərb onları hakimiyyətə gətirər: "Milli Şura adlanan marionet qurum bilirsiniz ki, Azərbaycanı istəməyən kənar qüvvələrin sifarişi və dəstəyi ilə yaradılmışdı. Yeni yaranan dövrlərdə arxalarında dayanan şimaldakı qüvvələrin sifarişi ilə hərəkət edirdilər və ümid edirdilər ki, həmin qüvvələrin dəstəyi ilə Azərbaycanda xalqı aldadıb hakimiyyətə gələcəklər. Lakin Azərbaycan xalqı kifayət qədər ayıq-sayıqlıq nümayiş etdirərək həmin məkrli qüvvələrin yalanlarına uymadı, onları boykot etdi. Milli Şura yaradılandan indiyə qədər Azərbaycan ictimaiyyəti tərəfindən həmişə boykot edilib. Xalqın dəstəyini heç zaman əldə edə bilməyib. Ona görə ki, bu qondarma qurum xalqın, cəmiyyətin istəyi ilə, sosial sifarişin nəticəsi olaraq meydana gəlməyib. Xalqın istəyi ilə sosial sifarişlə meydana gəlməyən, xaricdən verilən sifarişlə elan olunan təşkilata təbii ki, xalq heç zaman dəstək verə bilməzdi və vermədi. Bundan sonra da Milli Şuranı və onun tətikçisi rolunu üzərinə götürmüş AXCP-ni Azərbaycan xalqı boykot edəcək, onların heç bir çağırışına qoşulmayacaq. Azərbaycan xalqı onu qalib xalq edən Prezidentinin-İlham Əliyevin ətrafında birləşib. Azərbaycanda xalq-hakimiyyət birliyi sarsılmaz dərəcədə güclüdür. Milli Şura kimi kənar qüvvələrin əlində alət olan kiçik qrup bu birliyi pozmaq və ölkəni düşmənlərimizin arzuladığı xaosa sürükləmək gücündə deyil".

**Deputat qeyd etdi ki, bölgəmiz çox mürəkkəb əraziyə çevrilib. Cənub və şimalımızda qanlı münaqişələr alovlanıb. Rusiya-Ukrayna müharibəsi və İran-İsrail münasibətləri bölgədəki vəziyyəti hər keçən gün gərginləşdirir:** "Cənubi Qafqazda nüfuzunu gücləndirmək istəyən böyük güclərin mübarizəsi get-gedə dərinləşir. Ona görə də belə həssas məqamda milli birlik və həmrəylik məsələləri əvvəlkindən daha böyük aktuallıq kəsb etməlidir. Təəssüf ki, belə bir həssas məqamda, regionda toqquşmaların getdiyi bir zamanda Milli Şura adlanan özünü müxalifət adlandıran qrup fürsətdən istifadə etməyə çalışır. Onlara ölkədə daxildə qarşıdurmalar yaratmaq sifarişi veriblər. Onlar da Qərbdən istədikləri səviyyədə dəstək almaq üçün sifarişlə təyin etdikləri mitinqin tələbləri sırasına Rusiya sülhməramlıları məsələsini daxil ediblər. Görün nə dərəcədə deqradasiyaya uğrayıblar ki, bu cür vasitələrə əl atmaqdan belə çəkinmirlər. Qərbə mesaj verirlər ki, bizə daha çox dəstək versəniz Rusiyanı bölgədən sıxışdırıb çıxarmaq planınızda yer alarıq. Onlar aprelin 21-də mitinqlər keçirməklə Azərbaycanda qarşıdurma mühiti formalaşdırmağa cəhd göstərirlər. Amma Azərbaycanın güclü dövlət olduğunu da unudurlar".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 64 (8437) 17 aprel 2024

**Mərkəzi qərargahı ABŞ-da yerləşən “Freedom House” beynəlxalq hüquq müdafiə təşkilatı keçmiş SSRİ məkanı və Şərqi Avropa ölkələrini əhatə edən demokratiya hesabatı yayıb. Novator.az-ın məlumatına görə, Qırğızıstan (100 mümkün baldan 11 bal), Qazaxıstan (5 bal), Özbəkistan (3 bal), Belarus (2 bal), Azərbaycan, Rusiya, Tacikistan (1 bal), Türkmənistan (0 bal) qatı avtoritar ölkələr siyahısında gedir.**

# ABŞ-dan Azərbaycana qarşı “aprel tezisləri”

## “Freedom House”un son hesabatı Qərbin qərəzli siyasətinin tərkib hissəsidir

Hibrid rejimlər (yarıavtoritar, yarıdemokratik) belə sıralanır: Albaniya, Monteneqro, Şimali Makedoniya (46 bal), Macarıstan, Serbiya (43 bal), Ukrayna (40 bal), Kosovo (38 bal), Bosniya və Herseqovina, Moldova (36 bal), Ermənistan (35 bal), Gürcüstan (34) bal.

Bolqarıstan (59 bal), Polşa, Rumıniya (57 bal), Xorvatiya (54 bal) qismən demokratik ölkələr kimi göstərilir.

Estoniya (83 bal), Latviya, Sloveniya (80 bal), Litva (79 bal), Çexiya (74 bal), Slovakiya (70 bal) demokratik ölkələr qrupuna salınıb.

“Freedom House” Azərbaycan hökumətinin xüsusən ölkədə vətəndaş cəmiyyətinin və beynəlxalq qeyri-hökumət təşkilatlarının (QHT) sərbəst fəaliyyət göstərməsi üçün məkanı ciddi şəkildə məhdudlaşdırdığını qeyd edir.




Hesabatda Azərbaycandan qaz alan Avropa Birliyinə də ittiham var. İddia olunur ki, “demokratik siyasətçilər Avropanın qaz təchizatının Rusiyadan asılılığını azaltmaq səylərindəki ziddiyyətin ya fərqində olmayıblar, ya da bunu önəmli saymayıblar”.

“Belə görünür bir çox Qərb ölkəsi bu qazı almaqdan məmnundur, eyni zamanda həmin ölkədə gördüyümüz insan hüquqları pozuntularına qarşı mübarizə aparmaq da istəmir”.

**Deputat Azər Badamov “Yeni Müsavat”a bildirdi ki, “Freedom House” beynəlxalq hüquq təşkilatının hesabatları sifarişlər əsasında hazırlanır:** “Qərb hansı ölkələrə müdaxilə etmək və daxili sabitliyini pozmaq istəyirsə, o ölkələrin bu hesabatda reytinqi çox aşağı olur. "Freedom House"un bu hesabatı keçmiş SSRİ və Şərqi Avropa ölkələrini əhatə edən demokratiya hesabatı adlanır. Yəni Qərbin fondlarının, demokratiya carçısı adlandırdıqları QHT-lərin və siyasi texnoloqların müdaxiləsi ilə məhdudlaşdırılmış ölkələr demokratiya olmayan ölkələr sırasına daxil edilir. Onlar demokratiya, söz azadlığı və insan hüquqları mövzularını müstəqil ölkələrin daxili işlərinə qarışması üçün alət kimi istifadə edirlər. Qərb hansı ölkələrdə “narıncı inqilab”lar törədərək daxili sabitliyini pozmağa nail olursa, o ölkələr demokratik ölkələr sayılır. Amma onların demokratik saydığı ölkələr uzun illərdir ki, düşdüyü çətin durumdan xilas ola bilmirlər. Məsələn, demokratiya, söz azadlığı və insan hüquqları adları ilə törətdikləri “ərəb baharları” və Ukraynada, Gürcüstanda, Moldovada və Ermənistanda nail olunduqları “narıncı inqilablar”la dövlət çevrilişlərindən sonra düşdükləri vəziyyəti hamı görür. “Freedom House” bu ölkələri yüksək demokratiyanın olduğu ölkələr sırasına daxil edir. Məsələn, Ermənistanda jurnalistlər, siyasi fəallar, müxalifətçilər həbsxanalara salınır. Qərb və onların təsis etdiyi beynəlxalq təşkilatlar onları görmür və bu ölkəni 35 balla dəyərləndirir. Amma ölkəsində siyasi sabitliyi təmin olunmuş, bütün vətəndaşların təhlükəsiz yaşayışını təmin etmiş və öz gücü ilə ərazilərində suverenliyini bərpa etmiş Azərbaycana isə 1 bal verilir. Çünki biz Qərb fondlarının maliyyələşməsini və ölkə daxilində siyasi sabitliyin pozulmasına xidmət edən və xaricdən maliyyələşən radikalların fəaliyyətini məhdudlaşdırmışıq. Onlar üçün maraqlı olan onların maliyyəsi və siyasi texnoloqların hesabına ölkədə siyasi sabitliyi pozmaq əsas məsələdir.

Hesabatda Azərbaycandan qaz aldığına görə Avropa Birliyi də ittiham olunur. Əvvəlcə qeyd etmək istəyirəm ki, ABŞ-ın tətbiq etdiyi sanksiyalara qoşularaq Rusiya qazından imtina etməsi nəticəsində Avropa Birliyi böyük iqtisadi çətinliklərlə üzləşib. ABŞ-ın əsas məqsədi Rusiya qazını Avropa bazarından çıxarmaq və ondan dəfələrlə bahalı olan özlərinin mayeləşdirilmiş qazını Avropaya satmaq olub. Bu gün Avropada enerji təhlükəsizliyinin yeganə təminatçısı Azərbaycandır. Ona görə də ABŞ-ın növbəti məqsədi demokratiya adı altında Avropa Birliyinin Azərbaycan qazından imtina etməsinə nail olmaq və bazarda alternativsiz təminatçı olaraq öz hegemonluğunu həyata keçirməkdir. Avropa Birliyi ABŞ-ın bu oyunlarını görür və ona görə də Azərbaycan qazını almaq istəyənlərin siyahısı hər gün artmaqdadır. İqtisadiyyat siyasi maraqlara qurban verildə tənəzzül yaranır. Avropa Birliyi bu tənəzzüllə üzləşdiyindən bir daha ABŞ-ın oyunlarının güdazına gedərək Azərbaycan qazından imtina etməyəcək".

**AĞ Partiya başqanının I müavini, siyasi şərhçi Əhəd Məmmədli Azərbaycan tipli ölkələrə olan qərəzli münasibətdən söz açdı:** “Artıq bu cür beynəlxalq qurumlar tam şəkildə öz obyektivliyini itiriblər. Misal üçün, çoxmillətli, çoxkonfessiyalı Azərbaycanın tolerantlıq əmsalında Ermənistandan aşağıda göstərilməsini yada sala bilərik. Azərbaycan tolerantlıq üzrə dünyanın bəlkə də bir nömrəli ölkəsidir, amma görürsünüz ki, lazım olanda necə qərəzli bir mövqe ölkəmizə qarşı göstərilir. Eyni sözü demokratik göstəricilər haqqında da söyləmək olar. Ərazi bütövlüyümüzü bərpa etməyimizi etnik təmizləmə kimi qələmə verən təşkilatdan nə gözləmək olar? Adama deyərlər ki, xristian Avropasının hansısa ölkəsi işğal altında olsaydı və sonra ərazi bütövlüyünü bərpa etsəydi, eyni mövqedən çıxış edərdinizmi? Fələstində baş verən insanlıq faciəsinə görə İsrailə qarşı heç nə etməyən kollektiv Qərb dünya qarşısında obyektivlik, ədalət, dürüstlük əmsalını itirib. Fikir verin, Avropanın özündə də hansı ölkələri hədəfə alıblar? Məsələn, Macarıstan kimi müstəqil siyasət yürütməyə cəhd edən dövlətləri. Nə var, nə var, Orbanın siyasi tavrı bunların xoşuna gəlmir. Ona görə də kollektiv Qərb həm də nəzdində olan "Freedom House" kimi təşkilatların vasitəsilə müstəqil siyasət aparan ölkələrə təsir etmək mexanizmlərində bulunur. Bunların gözündə gərək marionet olasan ki, sənə yaxşı oğlan desinlər. Marionet olmaq istəməyənləri isə hədəfə alırlar. Azərbaycan, Macarıstan kimi dövlətlər kollektiv Qərbin yedəyində getmək istəmirlər, öz milli maraqlarını qoruyurlar deyə basqı altına salınırlar. Eyni münasibəti qardaş Türkiyəyə qarşı da görə bilərik. Lakin işğalçı İsrail bunların ən yaxın müttəfiqidir. Bundan sonra hansı ədalətdən danışmaq olar? Ona görə də güclü olmalıyıq və öz içimizdə ədalətli olmalıyıq ki, kənardan heç kəs bizə təsir, basqı edə bilməsin".

**Siyasi analitik Asif Nərimanlı isə bildirdi ki, “Freedom House”un Azərbaycana qarşı fəaliyyəti aşkar məsələdir:** “Qarabağ işğalda olanda bu təşkilat oradakı separatçı rejimin "demokratiyasını" Azərbaycandan üstün tuturdu. Bu hesabatında da Ermənistanın maraqları açıq şəkildə özünü büruzə verir, təkcə ona görə yox ki, Ermənistanın 35 balla qiymətləndirilməsi mübahisəlidir. Bu baxımdan, açıqlanan reytinqin heç bir mənası yoxdur. Lakin bu cür hesabatlarda Azərbaycanın ittiham edilməsi Qərbdə Bakıya qarşı siyasətin tərkib hissəsidir. Bununla Azərbaycana davamlı təzyiq etməyə çalışırlar. İndiyə qədər bu cür təzyiqlər Bakının müstəqil siyasətinə görə edilib, hazırda da Qərbin Cənubi Qafqazdakı planlarından qaynaqlanır. Bununla yanaşı, Qərbdə erməni diasporu/lobbisi həmişə bu kimi təşkilatlar üzərindən Azərbaycana qarşı siyasət aparıblar. İndi də dəyişən heç nə yoxdur".

❑ **Cavanşir ABBASLI**
**“Yeni Müsavat”**



## Vaşinqtonun Ermənistana hərbi yardımı nəyi dəyişəcək?

**Hazırkı mərhələdə ABŞ ilkin olaraq Ermənistana çətin relyef şəraiti olan yerlərdə istifadə etmək üçün hərbi təcili tibbi yardım maşınları göndərməyi planlaşdırır. Fikrimcə, burada əsas məqsəd siyasi şoudur.**

Bu sözləri Axar.az-a ABŞ-ın Ermənistana söz verdiyi hərbi yardım haqqında danışan **Qafqaz Tarixi Mərkəzinin direktoru, siyasi şərhçi Rizvan Hüseynov** deyib.

Siyasi şərhçi hansısa hərbi texnikanın Ermənistana göndərilməsinin heç nəyi həll etmədiyini, tam inteqrasiya üçün xeyli müddətin tələb olunduğunu vurğulayıb:

“Müqayisə üçün qeyd edim ki, Ukraynaya milyardlarla dollar yardımın ayrılmasına, silah-sursat və hərbi texnikanın göndərilməsinə baxmayaraq, istənilən nəticə əldə edilmir. Çünki Ukrayna ordusu NATO sisteminə tam keçməyib. Ermənistan ordusu isə onillər ərzində tamamilə Rusiya silah-sursatına, hərbi texnikasına və sisteminə inteqrasiya edilib. Yəni ABŞ yaxın gələcəkdə Ermənistana hansısa hərbi texnika göndərsə belə, bunun inteqrasiyası çox çətin olacaq. Bəhs etdiyimiz uyğunlaşmanın tam həyata keçirilməsi üçün minimum 10-15 il vaxt lazımdır. Məsələn, Azərbaycan Ordusunda NATO standartlarına keçid artıq 20 ilə yaxındır ki, başlayıb və proses davam edir. Bunun da bəhrəsini, üstünlüyünü biz 44 günlük müharibə və sonra keçirilən antiterror əməliyyatlarında gördük. Buraya peşəkar kadr hazırlığı, hərbi sahədə əsaslı şəkildə islahatlar, alınan texnika və silah-sursatın mövcud sistemə, güc strukturlarına uyğunlaşdırılması və s. daxildir. ABŞ-ın Ermənistandakı səfirinin dəstək açıqlaması isə yalnız ideoloji və təbliğat, eyni zamanda göstəriş məqsədi daşıyır. Əsas sual doğuran məsələ Vaşinqtonun İrəvandan cüzi sayda hərbi maşın və ya zirehli texnikanın qarşılığında nə tələb edəcəyidir. Cavab isə aydındır, ABŞ Ermənistandan Rusiyaya qarşı ikinci cəbhə açmasını istəyəcək. İndi Paşinyan və komandası bunun nəticələrini oturub diqqətlə fikirləşməli, götür-qoy etməlidir. Ölkəmiz üçün isə burada heç bir təhdid yoxdur, problem Ermənistan və Rusiya arasındadır”.

Qeyd edək ki, ABŞ-ın Ermənistandakı səfiri Kristina Quinn bir neçə gün öncə "AzadlıqRadiosu"nun erməni xidmətinə müsahibəsində Vaşinqtonla İrəvan arasında təhlükəsizlik və müdafiə ilə bağlı əməkdaşlığın müzakirə edildiyini, hərbi müşavirlərin, eyni zamanda zirehli təcili tibbi yardım maşınlarının göndərilməsi üzərində iş aparıldığını deyib.

# Hacı İbrahimi batıran layihə qayıdır - Xəzərdə süni adalar...

## Yeni layihənin riskli tərəfləri - ekspertlərdən fərqli rəylər

**Xəzər dənizinin (gölünün) Azərbaycana mənsub olan bölməsində tikinti məqsədləri üçün süni torpaq sahələri yaradılacaq. Bu, "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" qanun layihəsində əksini tapıb.**

Layihəyə əsasən, bu qanunun məqsədləri üçün süni torpaq sahəsi dedikdə Xəzər dənizinin (gölünün) Azərbaycana mənsub olan bölməsində torpağın və ya qruntun daşınıb tökülməsi, yaxud səpilməsi yolu ilə və ya başqa üsullardan istifadə olunmaqla yaradılan torpaq sahəsi başa düşülür.

Layihəyə əsasən, dəniz limanlarının fəaliyyətinin təmin edilməsi məqsədləri üçün süni torpaq sahələrinin yaradılması və onların istifadəsinin xüsusiyyətləri "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənəcək. Belə ki, süni torpaq sahəsinin yaradılması ilə bağlı icarə haqqı ödəniləcək.

Yeni qanun layihəsinə əsasən, süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinə və süni torpaq sahəsinə görə ödənilən icarə haqqının məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunacaq.

Qanun layihəsinin tələblərini pozan şəxslər qanunda nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyacaqlar. Qeyd edək ki, Bakıdan 25 km cənubda yerləşən, 41 adadan ibarət, 3000 hektar sahəni əhatə edən süni arxipelaqın tikintisi 2015-ci ildən dayandırılıb. "Avesta" şirkətinin təşəbbüsü olan layihənin dəyəri 100 mlrd. dollar təşkil edirdi, burada 1 milyon nəfərin yaşaması üçün şəhər salınması planlaşdırılırdı. "Xəzər adaları", yaxud bu layihənin təxminən 1.2 milyard dollara başa gələn hissəsi yüz milyonlarla dollar kredit əvəzində Azərbaycan Beynəlxalq Bankında girov qoyulmuşdu. Bankın keçmiş rəhbərliyi iqtisadi səmərəliliyi böyük şübhə doğuran bu layihəyə yüz milyonlarla dollar dövlət vəsaitini axıtmışdı. Sonradan 2015-ci ildə "kredit oliqarxları"nın ovu başlayanda "Avesta" şirkətinin rəhbəri Hacı İbrahim də həmin pullara görə istintaqa cəlb edildi. Belə vəziyyətdə bankda girov olan "Xəzər adaları" layihəsi də Beynəlxalq Bankın problemli kreditlərinə görə girov qoyulmuş digər aktivlər kimi "Azəraqrarkredit" ASC-nin balansına verildi. Daha sonra isə kompleks "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin balansına verilib. "Azərbaycan Sənaye Korporasiyası" layihə üçün xarici investor axtarsa da, 2021-ci ilin aprel ayına qədər bu layihə ilə heç bir investor maraqlanmayıb. 2019-cu ilin iyul ayında Hacı İbrahim açıqladı ki, daha onun dövlətə "bir qəpik də olsun" borcu qalmayıb. Çünki "Xəzər adaları"nı dövlətə verib. Yeni layihə-təkliflər miqyasına görə "Xəzər adaları"ndan fərqli olsa da, istisna deyil ki, eyni aqibəti yaşaya bilər.



**İqtisadçı ekspert Natiq Cəfərli mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, "Xəzər adaları" layihəsi akril layihə idi, reallaşdırılması mümkün deyildi:** "Bu, sadəcə, Azərbaycan Beynəlxalq Bankından külli miqdarda vəsait alıb mənimsənilməsi idi. İndiki təklif isə fikrimcə, başqa məsələlərlə bağlıdır. Yeni qanun layihəsi əsasən dəniz limanları ilə bağlıdır. Çünki Xəzər dənizində sürətlə suyun çəkilməsini görürük. Artıq indiki limanlardakı yerləşən gəmilərin yanalma estakadaları böyük həcmli gəmilərin yaxınlaşması üçün yetərli deyil. Ona görə dənizin iç hissinədək uzadılmalıdır ki, orada gəmilərin normal yaxınlaşması və yüklərin rahat şəkildə boşaldılması əməliyyatı həyata keçirilə bilsin. Xəzərin suyu kifayət qədər azalıb, azalmaqda davam edir. Nəticə etibarilə yüksək tutumlu gəmilər limana yaxınlaşa bilmir. Fəaliyyətdə olan limanlar artıq bunun üçün əlverişli deyil. Fikrimcə, bu məsələyə görə həmin limanların iç qisminin uzadılması bu layihənin əsas qayəsidir".

**İqtisadçı Eldəniz Əmirov da bu mövzu ilə bağlı fikirlərini bölüşüb. O, Xəzər dənizində süni torpaq sahələrinin yaradılaraq icarəyə və istifadəyə verilməsinə dair yeni qanun layihəsinin tərəfdarı olmadığını deyib:** "Çünki bu, Xəzər dənizinin sahil xəttinin zəbt edilməsinə dair ciddi risklər yaradacaq. Qanun layihəsində süni torpaq sahəsinin dövlət mülkiyyəti olacağı və özgəninkiləşdirilməsinə yol verilməyəcəyi bildirilir. Lakin yaxın keçmişdən başlayaraq Xəzərin sahil xətti boyu müşahidə edilən vəziyyət, bu prosesin sadə insanlar üçün Xəzərin əlçatanlığını daha da çətinləşdirəcəyini deməyə əsas verir. Qanuna əsasən, hüquqi və ya fiziki şəxsin torpaq sahəsində, həmçinin sahilboyu zolağın altında olan torpaq sahəsində inşa etdiyi bina və qurğuların mülkiyyət hüquqları qeydiyyata alınacaq. Yaxşı, bəs onda Xəzərin sahilinin mülkiyyət hüququ ayrı-ayrı şəxslərə malik olan bina və digər qurğularla dolması Xəzərin sahil xəttinin faktiki olaraq adi insanlar üçün əlçatmaz etməyəcəkmi?

Digər bir məsələ Xəzərin strateji əhəmiyyətidir ki, bir gün elə bir məqam gələcək ki, bu gün qanunla atılmış addımlar və verilmiş mülkiyyət hüquqları gələcəkdə dövlətin maraqları önə çıxdığı zaman mülkiyyət toxunulmazlığına dair problemlər ortaya çıxaracaq".

**Deputat Nurlan Həsənov isə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin keçirilən iclasında deyib ki, Xəzərdə süni torpaq sahələrinin yaradılması Azərbaycan üçün yeni imkanlar açacaq:** "Dənizdə süni torpaq sahələrinin yaradılmasından beynəlxalq təcrübədə geniş istifadə olunur. Bəzi dövlətlər bundan enerji, nəqliyyat, turizm, digərləri isə hərbi məqsədlər üçün istifadə edirlər. Yaponiya süni adalardan nəqliyyat məqsədilə istifadə edir. Süni adalar beynəlxalq konvensiya əsasında yaradılır. Yeni qanun layihəsi bu sahədə Azərbaycanda yeni imkanlara yol açacaq".

Qeyd edək ki, qanun layihəsində Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılma formaları müəyyən olunub.

Layihəyə əsasən, süni torpaq sahəsi Xəzər Dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində su fondu torpaqlarından ayrılan torpaq sahəsində (bundan sonra su fondu torpaq sahəsi) ayrıca və ya sahilboyu zolağa, adaya, yaxud digər süni torpaq sahəsinə bitişik formada yaradıla bilər. Bu qanunun məqsədləri üçün süni torpaq sahəsi dedikdə Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində torpağın və ya qruntun daşınıb tökülməsi, yaxud səpilməsi yolu ilə və ya başqa üsullardan istifadə olunmaqla yaradılan torpaq sahəsi başa düşülür.

❑ **Afaq MİRAYİQ,
"Yeni Müsavat"**

# Aral dənizini necə xilas etməli?

## Qazaxıstanın səyləri davam edir, amma...

**Qazaxıstanın Aral dənizini xilas etmək səyləri davam edir. Bu, miqyasını qiymətləndirmək çətin olan bir fəlakətdir. Çünki Aral dənizinin sahəsi hələ də kiçilir. Hər il quruyan dənizdən 80 milyon tona qədər zəhərli duz tozu qalxır və Qərbi Avropaya, Himalaya doğru hərəkət edərək, orada insanları, heyvanları və bitkiləri zəhərləyir.**



Aral dənizinin gələcəyi tamamilə Orta Asiya ölkələrindən asılıdır. Suyun öz-özünə qayıdacağını gözləmək olmaz. Yalnız bu fəlakətin ağır nəticələrinin artıq hamımıza təsir etdiyini dərk etməklə təkcə su anbarının bərpasına deyil, həm də bütün regionun su ekosisteminin davamlılığına birgə təsir göstərə bilərik.

Aral dənizinin dayazlaşma problemi və iqlim böhranının ciddiliyi ABŞ-da da başa düşülür. Vaşinqton Universitetinin ekspertləri Qazaxıstan səfirliyinin iştirakı ilə görüş keçirib. Mütəxəssislər diqqəti bəşəriyyətin artıq iqlim dəyişikliyi və su qıtlığı astanasında olması faktına yönəldiblər.

Görüşün iştirakçısı, Merilend Universitetinin tarix professoru Sara Kemeron Aral dənizi haqqında kitab üzərində işləyir. O, qlobal diqqəti su problemlərinə cəlb etməyə ümid bəsləyir.

Məsələ burasındadır ki, ABŞ özü də su hövzələrinin dayazlaşması problemi ilə üzləşib. Böyük Duz Gölü, Mid gölü və Duzlu dəniz quruyur. Onların hamısı Aral dənizinin taleyini yaşayır.

Ötən ilin sentyabrında Tacikistanda Mərkəzi Asiya dövlətlərinin Aralın xilas edilməsi Beynəlxalq Fondunun təsisçilərinin görüşü keçirilib. Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev sudan səmərəsiz istifadə probleminə diqqət çəkib.

"Bölgəmizin iki əsas çayının - Sırdərya və Amudəryanın axınının tənzimlənmə dərəcəsi olduqca yüksəkdir. Onların hövzələrində 80-dən çox su anbarı tikilib. Anbarların ümumi həcmi demək olar ki, 65 kub kilometrə çatır. Beləliklə, antropogen yükün artması, geniş ekoloji idarəetmənin davam etdirilməsi, müxtəlif sosial-ekoloji problemlərin kəskinləşməsi gözlənilir. Bütün bunlar regional təhlükəsizlik üçün ciddi risklər yaradır", - Tokayev bildirib.

Aral dənizi tədricən çətin keçilə bilən ölü səhraya çevrilir. Torpaqların deqradasiyası və məhsuldarlığın aşağı düşməsi hər il minlərlə insanı daha yaxşı həyat axtarışı ümidilə bu bölgələri tərk etməyə məcbur edir:

"Həmçinin rəqəmsal texnologiyaların və Aral dənizi hövzəsində su ehtiyatlarının uçotu, monitorinqi, idarə edilməsi və bölüşdürülməsi üçün vahid avtomatlaşdırılmış sistemin tətbiqi zəruridir.

Biz ölməyib sağ qalmağa hazırlaşmalıyıq! Qazaxıstan regionda istisnasız olaraq bütün Mərkəzi Asiya ölkələrinin maraqlarını nəzərə alacaq beynəlxalq su və enerji konsorsiumu yaratmaq niyyətindədir.

İqlim dəyişikliyi səbəbindən bölgədə həm daşqınlar, həm də quraqlıq müşahidə olunur. Beləliklə, su ehtiyatları üzrə dialoq və əməkdaşlıq daimi danışıqlar tələb edir. Aral dənizinin bərpası prosesi də müxtəlif dövlətlərdən və beynəlxalq təşkilatlardan əhəmiyyətli investisiyalar və birgə səylər tələb edəcək. Bunsuz problemi aradan qaldırmaq mümkün deyil.

Qazaxıstanda yaradılan ayrıca qurum - Su Təsərrüfatı və Suvarma Nazirliyi bu sahənin aktual məsələləri ilə yaxından məşğul olacaq. Bütövlükdə isə dövlətin yeni sistemə keçidi, ölkə daxilindəki problemləri təcili həll edilməsi, iqtisadiyyatın, ilk növbədə kənd təsərrüfatının şaxələndirilməsi, kənd təsərrüfatı və heyvandarlığın davamlı inkişaf etdirilməsi, hər yerdə müasir suya qənaət texnologiyalarından istifadə olunmasına nəzarət tələb olunur. Ən əsası insanların düşüncələrinin dəyişdirilməsi lazımdır".

YENİ MÜSAVAT
N 64 (8437) 17 aprel 2024

# Dörd kəndlə bağlı yeni sənədlər üzə çıxdı - Məmmədovun o imzası...

## Ermənistan Qazax rayonunun 7, Sədərəyin 1 kəndini işğaldan azad etmək istəmir

**90-cı illərin əvvəllərində işğal olunmuş Qazax rayonunun 4 kəndinin (Bağanis Ayrım, Xeyrimli, Aşağı Əskipara və Qızılhacılı) dərhal geri qaytarılması ilə bağlı Azərbaycan tərəfinin martın əvvəlində irəli sürdüyü ultimatum Ermənistanda qızğın müzakirələrə və mübahisələrə səbəb olsa da, rəsmi İrəvan kəndləri hələ qaytarmayıb.**

Məlumdur ki, Bakının bu tələbindən sonra baş nazir Nikol Paşinyan kəndlərin Azərbaycana məxsus olduğunu bəyan edərək, onların geri qaytarılmasının qaçılmaz olduğunu vurğulayıb. Bununla belə, erməni müxalifəti kəndlərin dərhal qaytarılmasının əleyhinədir və sərhədlərin delimitasiyasının hansı xəritə əsasında aparılacağı dəqiqləşənə qədər bu prosesi dayandırmağa çağırır.

Bugünlərdə Ermənistan parlamentində 7 saatdan çox davam edən müzakirələrdə xarici işlər naziri Ararat Mirzoyan və baş nazirin müavini Mher Qriqoryan iştirak edib. Məlumata görə, müzakirələrdə erməni deputatlar xarici işlər naziri Mirzoyana və baş nazirin müavini Qriqoryana sənədlər və xəritə veriblər. "Azərbaycan SSR ilə Ermənistan SSR-in bəzi torpaq istifadəçiləri arasında sərhədlərin bərpası (tənzimlənməsi) haqqında" adlı bu protokolu daşnak deputat Qeqam Manukyan nümayiş etdirib. Bu sənədi 1988-ci il yanvarın 12-də Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini Musa Məmmədovla Ermənistan SSR Nazirlər Soveti sədrinin müavini Vladimir Movsesyan imzalayıb. Yeri gəlmişkən, sözügedən sənəd Azərbaycan SSR ilə Ermənistan SSR arasında imzalanmış sonuncu hüquqi aktdır. Protokolun 6-cı bəndində qeyd olunur ki, torpaq istifadəçilərinin vəziyyətinə əsasən, iki respublikanın razılığı ilə Qazax rayonunun Bağanis Ayrım sovxozu ilə Noyemberyan rayonunun Voskepar sovxozu arasında torpaq mübadiləsi aparılır. Voskepar sovxozunun torpaq sahəsinin bir hissəsi örüş üçün Bağanis Ayrım sovxozunun istifadəsinə verilir, bunun müqabilində Ermənistan tərəfinə ev tikintisi üçün Aşağı Əskipara kəndi ərazisindən torpaq sahəsi ayrılır.


Musa Məmmədov

Manukyan vurğulayıb ki, 4 kəndi Azərbaycana qaytarmazdan əvvəl bütün bu sənədləri diqqətlə təhlil etmək lazımdır.

Erməni mediası yazır ki, təqdim edilən sənəd Qazax rayonunun 4 kəndinin qaytarılmasına təsir göstərə bilməz, çünki bu, həmin kəndin mənsubiyyətini mübahisələndirmir. Mübahisələr kəndlərin özlərinə görə deyil, onlara bitişik ərazilərə görə yarana bilər, lakin kəndlər mütləq Azərbaycana qaytarılmalıdır.

Bu mübahisələr fonunda baş nazir Nikol Paşinyan bildirib ki, tərəflər delimitasiyanın hansı xəritələrə əsaslanacağına qərar verməyincə, Bakı ilə sərhədin delimitasiyası prosesi başlaya bilməz. Ermənistan tərəfinin iddiasına görə, Mher Qriqoryanın və Şahin Mustafayevin rəhbərlik etdiyi sərhəd komissiyalarının son iclasında müzakirə olunan məsələlərdən biri də xəritələrlə bağlı olub. Amma heç bir razılaşma yoxdur. **Mher Qriqoryan isə bildirib ki, delimitasiyanın Tavuşdan başlanması ilə bağlı yekun qərar yoxdur:** "Həmin bölgədə delimitasiyaya başlamaq qərarı fundamental məsələlər üzrə konsensus əldə ediləcəyi təqdirdə veriləbilər. Bunlar təhlükəsizlik, sosial-məişət və hüquqi məsələlərdir".

Ümumilikdə proseslər nədən xəbər verir? Bu, o deməkdirmi ki, 4 kəndin qaytarılması xəritə məsələsi həll olunana qədər təxirə salınır? Üstəlik, niyə işğal altındakı 8 yox, 4 kənddən ayrıca bəhs olunur?

**Deputat Sahib Alıyev "Yeni Müsavat"a açıqlamasında əminliklə bildirdi ki, Azərbaycanın sözügedən 4 kəndi ya qaytarılacaq, ya da Azərbaycan o kəndlərə qayıdacaq:** "Biz həmin kəndlərin qaytarılmasına, yəni problemin sülh yolu ilə həllinə üstünlük veririk. Qarşı tərəf isə bir neçə dəfə olduğu kimi, yenə də "Dəmir yumruq"suz hər hansı addım atmaq istəmir və Paşinyan bunda hətta bir rasionallıq da görür. Yəni belədə bir tərəfdən haylara göstərəcək ki, baxın, mən sizə demişdim ki, həmin kəndləri qaytarmasaq, Azərbaycan güc tətbiq edəcək. "Gellap"ın keçirdiyi sorğu da göstərdi ki, əhalinin 90 faizi həmin kəndləri qaytarmağın əleyhinədir, mən də sizin iradənizə uyğun hərəkət etdim və nəticə də budur".

**S.Alıyev ikinci bir məqama da diqqət çəkdi:** "Baxmayaraq ki, indiyədək bütün güc tətbiqlərini Azərbaycan beynəlxalq normalara dayanaraq edib, Ermənistanın havadarları bundan qəzəbləndiklərini gizlətməyiblər və ardınca ona müəyyən dəstək verməyə başlayıblar. Yəni məzlum obrazı Ermənistanın boyuna biçildiyindən və işinə yaradığından rəsmi İrəvan sözügedən kəndlərimizin məhz burnu əzilməklə qaytarılmasını özü üçün daha əlverişli sayır. Bir sözlə, mənə elə gəlir ki, bu kəndlərin də qaytarılması əməliyyatsız ötüşməyəcək. Hər halda, Ermənistanın rəhbərliyinin son açıqlamalarından da göründüyü kimi, onlar başqa yol qoymurlar".

**Azad Vətən Partiyasının sədri Akif Nağı bildirdi ki, Qazağın 7 və Sədərəyin 1 kəndi ilə bağlı Azərbaycanın mövqeyi aydındır:** "Daha doğrusu, bu vaxta qədər hadisələrə istinad edərək deyə bilərik ki, Azərbaycan bu və ya digər ərazilərin ona məxsus olduğunu qanuni əsaslar və faktlarla ortaya qoyur, həmin ərazilərin həqiqi sahibinə qaytarılmasını təklif edir. Bu təklif nəzərə alınmadıqda, müxtəlif bəhanələrlə vaxt uzadıldıqda isə qanuni haqqını digər vasitələrlə təmin edir. İndi də Azərbaycan həmin kəndlərin öz sahiblərinə qaytarılmasını təklif edir və bu qaytarma prosesinin dinc yolla həllini tapacağını gözləyir". **A.Nağı Qazağın 7 kəndi ilə bağlı vəziyyət barədə bunları vurğuladı:** "Onlardan 4 kənd Azərbaycanın əsas ərazisi ilə quru əlaqəyə malikdir və bu kəndlərin geri qaytarılmasının problemi yoxdur. Digər 3 kənd - Yuxarı Əskipara, Sofulu, Bərxudarlı isə eksklavdır, yəni Azərbaycanın əsas ərazisi ilə quru əlaqəyə malik deyil. Ermənilərin dedikləri Tavuş (Tovuzqala) vilayəti Noyemberyan (Barana) rayonunun Voskepar kəndi də vaxtilə Azərbaycan kəndi olub, Əskipara adlanıb, sovet vaxtı ermənilərə verilib. Voskepar dedikləri kənd Azərbaycanın Yuxarı və Aşağı Əskipara kəndləri arasında yerləşir. Səkkiz kəndin hamısı sovet vaxtında Azərbaycanın ərazi vahidləri olub. İndi onların nə üçün anklav və ya eksklav vəziyyətinə düşmələri araşdırılmalı və bu hal aradan qaldırılmalıdır, o cümlədən eksklavların hər birinin Azərbaycanın əsas ərazisi ilə əlaqəsi təmin olunmalı, tarixi ədalətsizlik aradan götürülməlidir".

**AVP sədrinin sözlərinə görə, 1988-ci ildə imzalandığı vurğulanan sənədlə bağlı əlavə dəqiqləşdirmələr aparılmalıdır:** "Ermənilər hər şeyi saxtalaşdırmağa meyllidirlər. Bir məqam ondan ibarətdir ki, diqqəti sovet dövrünün volyuntarist sənədlərinə yönəltməyə, ortaya bu və ya digər sənədləri çıxarmağa ehtiyac yoxdur. Onda diqqət əsas məsələdən yayına bilər. Əsas məsələ isə odur ki, bu kəndlər həmişə Azərbaycana aid olub, bunun üçün əlavə sübut axtarmağa, əlavə problemlər yaratmağa gərək yoxdur. Digər tərəfdən, bu sənəd Yuxarı və Aşağı Əskipara kəndlərinin Azərbaycana məxsus olduğunu bir daha göstərir". A.Nağının fikrincə, bir daha qeyd olunmalıdır ki, delimitasiya və 8 kənd məsələsi bir-birinə bağlanıla bilməz: "Əksinə, ermənilər ağıllanıblarsa, 8 kəndi qeyd-şərtsiz qaytarmalıdırlar, ondan sonra isə delimitasiya prosesi başlaya bilərik. Sadəcə, ermənilərin ağıllanacağına o qədər də ümid bağlamamalıyıq".

Ermənistandakı revanşist meyllərin getdikcə artması, işğal altındakı kəndlərimizlə bağlı müharibəyə çağırışlar, kilsənin də yer aldığı sərsəm iddialar Azərbaycanı gücdən istifadəyə təhrik edir. Son nəticədə "Dəmir yumruq" söz sahibi olacaq bu gedişlə və lokal hərbi əməliyyatlar qaçılmaz olacaq. Necə deyərlər, "İlan ulduz görməyincə, ölmür".

**❑ E.PAŞASOY,**
**"Yeni Müsavat"**




## Avropa Birliyindən 8 kəndlə bağlı açıqlama

**Azərbaycan və Ermənistan arasında delimitasiya və demarkasiya prosesinin əsasını hər iki ölkənin imzaladığı Almatı bəyannaməsi təşkil edir. Teleqraf.com-a istinadən xəbər verir ki, bu barədə Avropa Birliyinin (AB) Ermənistandakı səfirliyindən bildirilib.**

Səfirlik Azərbaycanın 8 kəndinin qaytarılması və sərhədlərin delimitasiya-demarkasiyası prosesi ilə bağlı ona ünvanlanan suala belə cavab verib:

"Ermənistan və Azərbaycan 1991-ci il Almatı bəyannaməsini imzalayan dövlətlərdir. Bu bəyannamə ilə 11 Sovet Respublikası inzibati sərhədlərinin beynəlxalq sərhədləri ola biləcəyini bəyan edib. Bu öhdəlik 2022-ci ildə Praqada Prezident Əliyev və Baş nazir Paşinyan tərəfindən bir daha təsdiqlənib. Bu, həm də bu ölkələrin sərhədlərinin AB tərəfindən tanınması üçün əsasdır.

İnzibati sərhəd heç vaxt beynəlxalq sərhəd olmayıb, ona görə də onu düzgün delimitasiya və demarkasiya etmək lazımdır, amma bizim üçün hər iki ölkənin imzaladığı Almatı bəyannaməsi əsasdır.

Bildiyiniz kimi, AB sülh və nizamlanma prosesində, ilk növbədə, prezident Mişel səviyyəsində çağırılan liderlərin görüşləri, eləcə də AB-nin xüsusi nümayəndəsi Toivo Klaarın tərəflərlə həyata keçirdiyi gündəlik iş vasitəsilə fəal iştirak edir. Sərhədin delimitasiyası üçün bunun ikitərəfli səviyyədə həyata keçirildiyi bəllidir və biz beynəlxalq hüququn müddəaları və Almatı bəyannaməsinə uyğun həll yollarını dəstəkləyirik.

Əlbəttə, bu prosesdə bütün ərazilər, o cümlədən Azərbaycan birləşmələrinin yerləşdiyi və Ermənistan SSR-in tərkibində olan ərazilər, o cümlədən erməni birləşmələrinin yerləşdiyi və Azərbaycan SSR-in tərkibində olan ərazilər müzakirə edilməlidir.

AB həmişə hər hansı təhdidlərdən çəkinməyin, o cümlədən Ermənistan və Azərbaycan tərəfindən həll olunmamış bütün problemlərin müstəsna olaraq sülh yolu ilə həll edilməsinin vacibliyini vurğulayır. Bu yaxınlarda Peter Stano da AB adından bunu vurğuladı".

AB səfirliyinin "Azərbaycan birləşmələrinin yerləşdiyi Ermənistan əraziləri" vurğusuna gəlincə, bu, İrəvanın qondarma iddiasıdır. Ermənistan sülh və delimitasiya prosesindən yayınmaq üçün bu kimi əsassız iddialardan həmişə istifadə edir. Əksinə, Ermənistanın Azərbaycana qaytarmalı olduğu ərazilər var və bu, artıq İrəvanda rəsmən etiraf və bəyan edilib.

YENİ MÜSAVAT
N 64 (8437) 17 aprel 2024




# Azərbaycan Avropa Şurasına qayıdır?

## Siyasi şərhçi: "Azərbaycanla bağlı verdiyi qərar bütövlükdə AŞ PA-nın prinsiplərinə zidd idi, odur ki..."

**Avropa Şurasının Nazirlər Komitəsi Azərbaycanın AŞ PA-ya qaytarılması barədə qərar qəbul edib. "Yeni Müsavat" xəbər verir ki, bu barədə "Alpha News" assambleyadakı mənbəsinə istinadən məlumat yayıb.**

Qeyd edək ki, yanvar ayında Azərbaycan nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyası ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlmişdi. Nümayəndə heyəti bununla bağlı bəyanat yaymışdı.

Assambleya rəsmi Bakının öz üzərinə götürdüyü "əsas öhdəlikləri" yerinə yetirmədiyi qənaətinə gəlib və bu barədə qətnamə qəbul edib.

Bu qərar AŞ PA-da Azərbaycan nümayəndə heyəti üzvlərinin etimadnamələrinin qəbul edilməməsi barədə avropalı deputatların çağırışlarından sonra verilib. Assambleya rəsmi Bakının öz üzərinə götürdüyü "əsas öhdəlikləri" yerinə yetirmədiyi qənaətinə gəlib və bu barədə qətnamə qəbul edib.

Qətnamədə deyilirdi ki, rəsmi Bakı ölkədə plüralist demokratiya və qanunun aliliyi, eləcə də fundamental insan hüquq və azadlıqlarına hörmətlə bağlı öhdəlik götürsə də, bu müddət ərzində bu tələbləri həyata keçirməyib.

Qeyd edək ki, Azərbaycan Prezidenti bir neçə dəfə AŞ PA-ya xəbərdarlıq ünvanlayıb. Prezident fevralın 1-də Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul edərkən deyib ki, Azərbaycan nümayəndə heyətinin hüquqları bərpa olunmayacağı təqdirdə, Azərbaycan tərəfindən də Avropa Şurası və Avropa İnsan Haqları Məhkəməsində iştirak məsələsinə yenidən baxılacaq. Prezident Avropa Şurası Parlament Assambleyasında anti-Azərbaycan xarakteri daşıyan və Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməməsi ilə bağlı azlıq olan bir qrupun təşəbbüsünün dialoqa xidmət etmədiyini vurğulayaraq bildirib ki, bu, ümumiyyətlə, parlament platformasının ənənələri ilə ziddiyyət təşkil edir.

**Siyasi şərhçi Elçin Mirzəbəyli "Yeni Müsavat"a mövzu ilə bağlı deyib ki, AŞ PA-nın son dövrlər Azərbaycana qarşı ədalətsiz münasibətini nəzərə almasaq, bu platforma əməkdaşlıq baxımından ölkəmiz üçün faydalıdır:** "Nəticə etibarilə istənilən platforma Azərbaycanın mövqeyinin çatdırılması üçün imkan yaradır. Ölkəmizin deputatları da Parlament Assambleyasında iştirak etməklə nəticədə Azərbaycanla bağlı ədalətli mövqenin sərgilənməsində fəaliyyət göstərirlər. Digər tərəfdən, Ermənistan və ermənipərəst qüvvələr ölkənin əleyhinə apardıqları təbliğatın qarşısının alınması istiqamətində öz arqumentlərini səsləndirir ki, bu baxımdan istənilən platforma əməkdaşlıq üçün faydalıdır. Amma bu son qərar gözlənilən idi. Çünki Azərbaycanın AŞ PA-nı tərk etməsi orada təmsil olunan, Azərbaycanın müttəfiqi olan ölkələr tərəfindən də birmənalı qarşılanmırdı. Onlar da AŞ PA-nın mövqeyinə etirazlarını bildirirdilər. Birtərəfli qaydada qəbul olunan qərarların yolverilməz olduğunu diqqətə çatdırırdılar. Digər tərəfdən, Azərbaycanla bağlı verdiyi qərar bütövlükdə AŞ PA-nın prinsiplərinə zidd idi. Çünki burada məqsəd əgər faydalı, qarşılıqlı əməkdaşlıqdırsa, istənilən dövlətə qarşı qərəzli mövqenin sərgilənməsi və mandatın dondurulması istiqamətində qərarların qəbul olunmasına cəhd bu prinsiplərə zidd. Fikrimcə, Avropa Şurasının Nazirlər Komitəsi doğru bir qərar qəbul edib. Azərbaycanın bir daha bu təsisat üçün nə qədər əhəmiyyətli olduğunu bu qərar diqqətə çatdırır".

**❑ Afaq MİRAYİQ,
"Yeni Müsavat"**



# 15 ay əvvəl qıfıllanan səfirlik müəmması - Bakı tələsmir

## Azərbaycan Tehrandakı səfirliyi açmaq üçün İrandan hansı suallara cavab gözləyir?

**Azərbaycanın İranda diplomatik fəaliyyətinin bərpası üçün hazırlıqlar görülüb. Bunu İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənani deyib. O qeyd edib ki, sözügedən məsələ barədə hər iki tərəfin prezidentləri səviyyəsində danışıqlar aparılıb.**

"Ümumi konsensus var ki, əməkdaşlığın digər sahələri, o cümlədən iki ölkə arasında iqtisadi, siyasi və diplomatik əməkdaşlıqlar da inkişaf edəcək və biz Azərbaycanın İran diplomatiyasının yeni fəallığının şahidi olacağıq", - diplomat vurğulayıb.

Kənanın sözlərinə görə, Azərbaycanın diplomatik nümayəndə heyəti bir müddət əvvəl, ötən ilin sonlarında səfirliyin yenidən açılmasına hazırlıq üçün Tehrana səfər edib. O, İranın Azərbaycandakı səfirinin missiyasının başa çatması ilə bağlı suala cavab olaraq bildirib ki, hazırkı prosesə uyğun olaraq səfir seçimi inzibati qaydada həyata keçiriləcək.

Xatırladaq ki, 27 yanvar 2023-cü ildə Azərbaycanın Tehrandakı səfirliyinə silahlı basqın nəticəsində 1 nəfər ölüb, 2 nəfər yaralanıb. Bundan sonra ölkəmizin Tehrandakı səfirliyinin fəaliyyəti dayandırılıb.

Belə görünür ki, Tehran bu məsələdə tələssə də, Bakı son qərarı vermir. Bunun ən ümdə səbəbləri nə ola bilər?

**Politoloq Oqtay Qasımov** "Yeni Müsavat"a bildirdi ki, 2020-ci ildə Ermənistanla Azərbaycan arasında 44 günlük müharibədən sonra Azərbaycan-İran münasibətləri heç də hamar olmadı. Bunun əsas günahkarı İrandır: "Çünki İran məhz 44 günlük müharibədən sonra Azərbaycan sərhədlərində dəfələrlə hərbi təlimlər keçirərək Azərbaycanı təhdid etdi, hədələdi, eyni zamanda Qarabağda qalan separatçı quldur rejimə bu və ya digər formada dəstək verdi, o cümlədən onları yanacaq, ərzaq və digər bu kimi məhsullarla təmin etməklə yanaşı özünün hərbi təlimçilərini də separatçıların nəzarətində olan əraziyə göndərdi. Həmçinin İran bu müddətdə Ermənistana bütün formatlarda dəstəyini əsirgəmədi. Azərbaycanla münasibətlərin kəskinliyinin dozası da, təbii, zaman-zaman artdı və kulminasiya nöqtəsi Azərbaycanın Tehrandakı səfirliyinə terror aktı, bunun ardınca Azərbaycan Milli Məclisinin üzvü Fazil Mustafaya sui-qəsd cəhdi oldu ki, bu da Azərbaycan-İran münasibətlərinə çox ağır zərbə vurdu. Keçən ilin yayından isə münasibətlər nisbətən normallaşmağa başladı və İran rəsmilərinin Azərbaycana səfəri, o cümlədən İran baş prokurorluğunun nümayəndə heyətinin Azərbaycana səfər edərək səfirliyimizə qarşı törədilən terror aktının istintaq araşdırmaları haqqında bilgilər verməsi pozitiv addımlar sayıldı. Baxmayaraq ki, Azərbaycan ilk gündən səfirliyə qarşı törədilən terrorun sifarişçi və təşkilatçılarının aşkara çıxarılması və onların haqq etdiyi cəza ilə cəzalandırılmasını istəyirdi. İran tərəfindən verilən məlumatlara görə, terroru həyata keçirən şəxs haqqında məhkəmənin edam hökmü var. Bunların nə qədər həqiqətə uyğun olduğunu söyləmək çətindir. Bütün hallarda İranla Azərbaycan arasında bir çox məsələlər hələ də həll edilməmiş qalır. Xüsusilə də nəzərə alsaq ki, İranın Ermənistanla artan və genişlənən əməkdaşlığı, bunun hərbi və təhlükəsizlik sahələrini əhatə etməsi, İranın Zəngəzurda konsulluq açması və Azərbaycanın maraqlarına zidd fəaliyyət göstərməsi ciddi suallar yaradır. Bu sualların cavabı verilməyənə qədər təbii ki, Azərbaycan-İran münasibətlərinin tam şəkildə qaydaya düşdüyünü söyləmək çətin olar. İran istəyir ki, Azərbaycan bu suallarını ona ünvanlamasın və olanlar unudulsun. Lakin gələcəkdə əlavə problemlərin meydana gəlməməsi üçün Azərbaycanın mövqeyi daha düzgündür".

**Politoloq xatırlatdı ki, Azərbaycanla İran arasında Zəngəzur dəhlizinə paralel İran ərazisindən alternativ kommunikasiya xəttinin çəkilməsi ilə bağlı razılaşma oldu və bu layihə icra edilməkdədir:** "Bu müsbət bir tendensiyadır. Amma bütün hallarda İran Zəngəzur dəhlizinin açılmasında və Azərbaycanla Ermənistan arasında münasibətlərin tam şəkildə həll olunmasında maraqlı deyil. Zəngəzur dəhlizinin açılmasına əsas əngəl törədən dövlət rolunda İran çıxış etməkdədir. İranın bir tərəfdən bu cür davranmağa davam etməsi, o biri tərəfdən səfirliyin fəaliyyətinin bərpa olunmasını istəməsi də ziddiyyət təşkil edir. Tehran bu ziddiyyətli vəziyyəti də aradan qaldıran addımlar atmalıdır ki, məsələ müsbət həllini tapsın. İndiki vəziyyətdə isə Bakının Tehrandakı səfirliyimizi açmaqda tələsməməsi və səbirli davranması tamamilə doğrudur".

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov da bildirdi ki, Azərbaycanla İran arasında münasibətlərin soyuqlaşmasının əsas səbəbkarı Tehrandır və səfirliyimizə edilən qanlı terror hücumundan sonra Azərbaycan öz diplomatik nümayəndəliyinin Tehranda fəaliyyətini haqlı olaraq dayandırdı:** "Çünki biz diplomatlarımızın və onların ailə üzvlərinin təhlükəsizliyini qorumalıydıq. Eyni zamanda terror aktının təşkilatçıları, icraçıları məsuliyyətə cəlb olunmalı idi. Baxmayaraq ki, terrorçu Yasin Hüseynzadəyə edam hökmü çıxarılıb, lakin hökmün həyata keçirilməsi hələ baş verməyib. Bütün bunlar onu deməyə əsas verir ki, münasibətlərin yaxşılaşması üçün İranın atmalı olduğu addımlar var. Səfirliyimizin bərpa olunacağına dair informasiyalar mövcuddur. Bu münasibətlərin daha da normallaşmasına, ən azından əvvəlki səviyyəyə qaytarılmasına dair cəhd ola bilər. Amma bunun üçün rəsmi Bakının haqlı tələblərinin yerinə yetirilməsinə ehtiyac var. 1961-ci il Vyana Konvensiyasının tələbləri yerinə yetirilməli və səfirliyin təhlükəsizliyi ən yüksək səviyyədə təmin olunmalıdır. Bu konvensiyanın bütün tələbləri icra olunmayana qədər Azərbaycanın Tehrandakı səfirliyinin fəaliyyətinin bərpası müəyyən suallara səbəb ola bilər. Biz heç istəmirik ki, bir daha səfirliyimizə qarşı təhlükə yaradan qanunsuz hallar, terror aktları baş versin. Ona görə də düşünürəm ki, səfirliyimizin fəaliyyətinin bərpa olunması və Azərbaycana İranın yeni səfirinin təyin olunması münasibətlərin yaxşılaşdırılması üçün əlverişli zəmin formalaşdıra bilər".

**❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 64 (8437) 17 aprel 2024

# Varlı azərbaycanlılar Gürcüstan kazinolarında

## Azərbaycanda bu biznesə icazə verilsə...

**Bakı Avrasiya Universitetinin (BAU) prorektoru Gürkan Hüseynovun Gürcüstanda kazinoda külli miqdarda pul uduzduğu haqda xəbərlər yayılıb. Demokrat.az məlumat verir ki, yayılan xəbərlərə əsasən, BAU-nun prorektoru dostları ilə birlikdə Gürcüstanın paytaxtı Tiflisə istirahətə yollanıb və aprelin 11-də əyləncə məqsədilə məşhur "Ambasodor" kazinosuna gedib. Amma onun əyləncəsi, necə deyərlər, "burnundan gəlib". Belə ki, prorektor kazinoda yüksək məbləğdə pul uduzub. Gürkan Hüseynov həm də Bakı Avrasiya Universitetinin rektoru Nazim Hüseynovun oğludur. Əslən Gədəbəydən olan rektor öz oğlunu ali məktəbin prorektoru təyin edib. Bakı Avrasiya Universitetinin rektorunun köməkçisi Şəfayət Avılbəyli Oxu.az-a bildirib ki, yayılan məlumatlar yalandır.**



Mətbuatda zaman-zaman Azərbaycandan olan iş adamlarının, hətta deputatların Tiflisdə kazinoda qumar oynaması ilə bağlı xəbərlər yayılır.

Məlumdur ki, Azərbaycanda qumar (kazino) fəaliyyəti rəsmi olaraq yasaqdır. Belə ki, mərhum dövlət başçısı Heydər Əliyev Azərbaycanda bütün kazino və qumarxanaların bağlanması barədə 1998-ci ildə qərar verib. Bununla belə, Bakının müxtəlif ünvanlarında hələ də kazino və qumarxanalar gizli şəkildə fəaliyyət göstərir. Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları paytaxtın müxtəlif yerlərində mütəmadi olaraq, belə obyektlər aşkarlayırlar. Amma imkanlı azərbaycanlılar daha çox ölkədən kənarda qumar oynayırlar. Son illər varlı azərbaycanlıların kazino həvəsi ilə əsasən qonşu Gürcüstana - Tiflis və Batumiyə üz tutduqları vurğulanır. Bildirildiyinə görə, azərbaycanlı varlıları, o cümlədən bəzi müxtəlif çaplı məmurları Tiflis kazinolarında əsasən həftəsonları görmək olar. Yay aylarında tətil üçün Batumiyə üz tutanlar üçün də buradakı kazinolar ən sevimli məkanların başında gəlir. Kazinoların qarşısında daim Azərbaycan, özəlliklə də Bakı nömrəli maşınlar görmək olar. Azərbaycandan olan qumarbazlar qonşu ölkənin paytaxtındakı kazinoların əsas gəlir mənbəyidir. İddialara görə, hazırda Gürcüstan iqtisadiyyatı qumar biznesindən sanballı gəlir əldə edir. İran, Türkiyə, Tacikistan və Qazaxıstandan da qumar həvəskarları tez-tez Gürcüstana gəlirlər.

Hazırda qumar biznesinin genişliyinə görə dünyada birinci yeri ABŞ tutur. Bu biznesin ilk qanuniləşdiyi ölkələrdən biri də məhz ABŞ-dır. Ondan sonrakı sıralamada Avropanın cırtdan ölkəsi olan Monako, Malta, Böyük Britaniya, Kamboca, Hindistan və Çin gəlir.

Gürcüstan iqtisadiyyatı bu biznesdən milyonlar qazanır. Azərbaycanda da kazino biznesinə icazə verilməsi iqtisadi baxımdan sərfəli deyilmi? Kazino həvəskarlarını dünyanın dörd bir tərəfindən ölkəyə cəlb etmək üçün bu addım atılmalıdırmı?

**Tanınmış vəkil Əkrəm Həsənov "Yeni Müsavat"a deyib ki, kazino biznesi kifayət qədər gəlirlidir:** "Kazinolar, qadın və narkotik alveri Azərbaycanda qadağandır. Amma xeyli ölkə var ki, bu bizneslərə orada "yaşıl işıq" yandırılıb. Bu iqtisadi məsələ olmaqla yanaşı, həm də mənəvi məsələdir. Azərbaycanda bu bizneslərin qadağan olunması mənəvi tərəflərlə əlaqəlidir. Yəni hər şey pulla ölçülmür".

**Əkrəm Həsənov hesab edir ki, Azərbaycan kazino biznesinə icazə versə belə, Gürcüstandakı kazinoların müştəriləri ölkəmizə axın etməyəcək:** "Azərbaycanda qanunçuluğun vəziyyəti Gürcüstandan qat-qat pisdir. Ölkədə kazino olsa belə, bizdəki cığallıq, yersiz müdaxilələr müştərilərin Azərbaycana üz tutmasının qarşısını alacaq. Bura xaricdən gələn müştəri əmin olmayacaq ki, udduğu pulu buradan rahat şəkildə apara biləcək. Hətta haram olan məsələlərdə də qayda-qanun olmalıdır. Azərbaycanda isə qanuni, haram olmayan məsələlərdə belə qayda-qanuna o qədər də əhəmiyyət verilmir. Azərbaycanda kazinoların açılmasını əngəlləyən həm də bu məsələdir. Ümumilikdə kazinolar bərpa edilmədən də turizm sektorunu inkişaf etdirmək mümkündür".

**Məsələnin mənəvi-sosial tərəfləri barədə "Yeni Müsavat"a danışan sosioloq Əhməd Qəşəmoğlu hesab edir ki, Azərbaycanda kazinoların açılması cəmiyyəti uçuruma apara bilər:** "Hansı cəmiyyətdə ki, mənəvi dəyərlər öndə olur, o cəmiyyətlər öz-özünü tənzimləyə bilir. Həmin cəmiyyətlərdə bir ahəng yaranır. Maddi dəyərlər öndə, mənəvi dəyərlər arxa planda olan cəmiyyətdə isə çox böyük problemlər yaranır. Hansı ki, biz artıq öz cəmiyyətimizdə bunu müşahidə edib, ən eybəcər hallar barəsində, demək olar ki, hər gün məlumat alırıq. Belə davam etsə, bir neçə il sonra daha fəlakətli və xoşagəlməz halların şahidi olacağıq. Bu, cəmiyyətin qanunauyğunluğudur. Bütün bunlar heç kimin istəyi ilə baş vermir. Azərbaycan cəmiyyətinə nəzər salsaq, çox şeyi görərik. Bu cəmiyyət elə bir haldadır ki, hər şey bir-birinə qarışıb. Ortada xaotik vəziyyət var. Biz burada indiki və yaxın onilliklərdə ən çox diqqəti ona verməliyik ki, Azərbaycan özünün min illərdən bəri gələn yaxşı dəyərlərini itirməsin. Bir millət və xalq olaraq bunları qorumaq lazımdır. Biz mənəvi dəyərlərə üstünlük verməliyik. Çünki mənəvi, əxlaqı dəyərlərin öndə olması bu cəmiyyəti yeganə xilas edə biləcək vasitədir. İndiki vaxtda, etdiyimiz halların baş verdiyi bir zamanda Azərbaycanda kazinoların açılması uyğun hal deyil".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Sosial şəbəkələr üzərindən soyuq silah alveri

## Ekspert: ""Beşbarmaq" oyuncaq deyil..."



**Azərbaycanda alışı, satışı və istifadəsi qanunla qadağan edilən soyuq silahlar, beşbarmaq, qələm formasında olan gözyaşardıcı qazlar sosial şəbəkədə açıq şəkildə satışa çıxarılıb. Sosial şəbəkədə istənilən forma, dizayn və ölçüdə "beşbarmaq", bıçaq, habelə soyuq silah sayıla biləcək digər vasitələr almaq mümkündür.**

Qeyd edək ki, açıq formada satışı həyata keçirilən bu məhsullara maraq da az deyil. Satışa çıxarılan bu tip əşyanın şəklinin altındakı şərh və bəyənmə saylarına diqqət edən zaman bəlli olur ki, bunlara maraq yüksəkdir.

**Mövzu ilə bağlı fikir bildirən "Polisə Dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə şərhində bildirib ki, insanların sağlamlığına zərər verə biləcək soyuq silahların satışı qadağandır:** "Təəssüf ki, bu gün sosial şəbəkədə onlayn şəkildə soyuq silahların satışı ilə bağlı məlumatlar yayılır. Sosial şəbəkədə bu cür satışın keçirilməsi, reklamın aparılması belə düzgün deyil. Bu, ictimai təhlükəsizliyin qorunmasına uyğun gəlmir. Soyuq silah satışı ilə məşğul olan səhifələrə aidiyyəti qurumlar tərəfindən nəzarət edilir".

**Ekspert onu da əlavə ebib ki, sabitliyin təmin olunduğu şəhərdə, ölkədə vətəndaşların həyat və sağlamlığı üçün təhlükə törədə biləcək soyuq silahların əldə edilməsi, satışı yolverilməzdir:** ""Beşbarmaq" deyilən silah adi oyuncaq deyil, bu, insan sağlamlığına zərər yetirə bilər. Eynilə digər soyuq silahlar da insan həyatı üçün riskdir. Onu da deyim ki, silahların təbliğatı hansı səhifələrdə aparılırsa, aidiyyəti şəxslər buna görə məsuliyyətə cəlb olunmalıdır".

**Hüquqşunas Hüseyn Axundov da "Bakı-Xəbər"ə açıqlamasında bildirib ki, soyuq silah hesab ediləcək bıçaq, "beşbarmağ"ı satanlar cinayət məsuliyyətinə cəlb edilməlidir:** "Qanunvericiliyə görə, soyuq silahların alışı, satışı və gəzdirilməsi qadağandır. Beşbarmaq qanunla tam qadağan edilmiş soyuq silahdır. Onun satışı, gəzdirilməsi artıq cinayət məsuliyyətidir. Onlayn mağaza olsa belə, müvafiq qurumlar tərəfindən həmin səhifənin idarəçilərini tapmaq mümkündür".



# Etibar Məmmədov oğlu ilə bağlı xəbəri təkzib etdi

**Sosial şəbəkədə Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) fəxri lideri Etibar Məmmədovun oğlu Orxan Məmmədovun "SOCAR Türkiyə" şirkətində işə düzəlməsi ilə bağlı məlumatlar yayılıb.**

Etibar Məmmədov Modern.az-a açıqlmasında sözügedən məlumatın həqiqət olduğunu təkzib edib.

"Orxanla bağlı deyilənlər həqiqəti əks etdirmir. O, "SOCAR Türkiyə"də işləmir", - E.Məmmədov deyib.

Qeyd edək ki, Etibar Məmmədovun iki oğlu, bir qızı var. Onun böyük oğlu Orxan Məmmədovun uzun müddətdir biznes sahəsində fəaliyyət göstərdiyi bildirilir.

Partiya liderinin kiçik oğlu Ayxan Məmmədov AMİP gənclər təşkilatının sədridir.



# Vüqar Səfərli ilə birgə həbs edilən şirkət rəhbəri azadlığa çıxmaq istəyir

**Ləğv edilmiş Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) sabiq direktoru Vüqar Səfərli ilə birgə məhkum edilmiş "Portos" MMC-nin direktoru Nadir Məmmədov vaxtından əvvəl azadlığa buraxılması ilə bağlı məhkəməyə müraciət edib.**

APA xəbər verir ki, müraciətə Binəqədi Rayon Məhkəməsində baxılıb.

Məhkəmədə müdafiə tərəfinin müraciətdə Nadir Məmmədovun səhhəti ilə bağlı çəkilməmiş cəzasının şərti hesab edilərək azadlığa buraxılması istənilib.

Məhkəmə iş üzrə Nadir Məmmədovun səhhəti ilə bağlı ekspertiza təyin edib. Bu səbəbdən proses qeyri-müəyyən vaxta qədər təxirə salınıb.

Qeyd edək ki, "Portos" MMC-nin direktoru Nadir Məmmədov 2021-ci ildə həbs edilib. O, vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə külli miqdarda mənimsəmədə təqsirli bilinir.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Nadir Məmmədov 6 il azadlıqdan məhrum edilib. Bakı Apelyasiya Məhkəməsi hökmü dəyişdirmədən qüvvədə saxlayıb.

# "Sədərək Yusif"in oğlu hakim qarşısında




**"Sədərək" ticarət mərkəzinin sahibi Yusif Qədimbəylinin oğlu Orxan Qədimbəyli torpaq mübahisələri ilə bağlı "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" Publik Hüquqi Şəxsinin 1 saylı Bakı Ərazi İdarəsindən məhkəməyə şikayət edib.**

"Unikal"ın məlumatına görə, Bakı Apelyasiya Məhkəməsində keçiriləcək məhkəmə prosesinə hakim Aytən Oruczadə sədrlik edəcək.

Xatırladaq ki, Orxan Qədimbəyli öz evində xadimə işləyən qadını həbs etdirməklə gündəmə gəlmişdi. Belə ki, Ruzan Cabbarova 2022-ci ildə Orxan Qədimbəyli və onun həyat yoldaşı Fəridə Qədimovaya məxsus olan İçərişəhərdəki evindən 803 min 118 manat dəyərində qızıl-zinət əşyaları və nağd pul oğurlamışdı.

Yeni MÜSAVAT
N 64 (8337) 17 aprel 2024

# Dövlət İnvestisiya Şirkəti haqda şok hesabat: pulları belə batırıblar...

## Şirkətin saytında yerləşdirilən məlumatdan aydın olur ki, 18 ildə cəmi 22 layihəyə 184,6 milyon dollar yatırım edilib

**Hesablama Palatası Azərbaycan İnvestisiya Şirkətinin fəaliyyətini audit edib və çoxsaylı nöqsanlar aşkarlayıb. Palatanın açıqladığı audit qiymətləndirməsindən aydın olur ki, AİŞ 2021-2022-ci illər üzrə riskli və səriştəsiz yatırımlar edib. Yatırım etdiyi şirkətlər sırasında cəmi bir şirkət divident ödəyib.**

Şirkətin rəsmi səhifəsində göstərilib ki, AİŞ-in prioritet vəzifələri Azərbaycanda həyata keçirilən əlverişli layihələrə investisiya qoymaq, birbaşa investisiyalar, istedad və texnologiyaların Azərbaycana cəlb edilməsi üzrə katalizator olmaq, qeyri-neft sektorunun inkişafına töhfə vermək, iqtisadiyyatın inkişafına, habelə iqtisadi diversifikasiya və idxal əvəzləyici proseslərə dəstək verməkdir.

**Hesablama Palatası isə açıqlayıb ki, AİŞ bütün bunları nəzərə almayıb və əsas istiqamətini asan gəlir yeri kimi qiymətli kağızlara yönəldib:** “AİŞ-in idarə olunan aktivlərinin böyük hissəsini dövlət və korporativ istiqrazlar təşkil edib, auditlə əhatə olunan dövrdəki gəlirlərinin əsas hissəsi bu qiymətli kağızlar üzrə ödənilmiş faizlər hesabına formalaşıb. Belə ki, auditlə əhatə olunan dövrün sonuna AİŞ-in idarə olunan aktivlərinin 60,1 faizini onun istiqraz portfeli təşkil edib, ümumiyyətlə, AİŞ-in 2021-ci ildə əldə etdiyi gəlirlərin 69,4 faizini, 2022-ci ildə isə 83,2 faizini istiqrazlardan gəlirləri təşkil edib”.

Palata həmçinin əlavə edib ki, AİŞ “Bakı Gəmiqayırma Zavodu” MMC-yə və ona məxsus qiymətli kağızlara nizamnamə kapitalının 64,8 faizi həcmində investisiya edib. Bu da portfelin böyük hissəsinin bir aktivə yatırılması ilə bağlı konsentrasiya riski yaratmaqdadır.

Aşkar edilən nöqsanlar bununla da yekunlaşmır. 2022-ci ildə “Azərbaycan Biznesin İnkişafı Fondu”nun yaradılması təmin edilmədiyindən onun üçün nizamnamə kapitalı kimi nəzərdə tutulmuş 43 milyon manat AİŞ-in nizamnamə kapitalına yönəldilib. AİŞ isə bir gün sonra həmin vəsaitin 46,5 faizini dövlət qiymətli kağızlarına yatırıb.

Qeyd edək ki, Azərbaycan İnvestisiya Şirkəti Prezidentin müvafiq sərəncamı ilə 2006-cı ildə yaradılıb. AİŞ-in bütün payları Azərbaycan dövlətinə məxsusdur. Şirkət Müşahidə Şurası tərəfindən idarə edilir. AİŞ-in məqsədi Azərbaycanın qeyri-neft sektoruna kapital investisiyalarının yatırılmasıdır.

Şirkətin saytında yerləşdirilən məlumatdan aydın olur ki, 18 ildə cəmi 22 layihəyə 184,6 milyon dollar yatırım edilib.



Hesablama Palatası qeyd edir ki, auditlə əhatə olunan dövrdə “Azərbaycan İnvestisiya Şirkəti”nin (AİŞ) gəlirlilik göstəricilərinin əvvəlki dövrlərlə müqayisədə artması və likvid vəsaitlərin idarəolunması istiqamətində pozitiv dəyişikliklər fonunda, əvvəlki illərdə investisiya yönəldilmiş portfel şirkətlərin maliyyə vəziyyəti əsasən qənaətbəxş olmayıb, bəzi layihələrin AİŞ-in maliyyə hesabatlarında əks olunan ədalətli dəyəri həmin layihələrin nominal dəyərindən aşağı olub. Həmçinin portfel şirkətlərin satışından gəlirlər həmin gəlirlərin əldə edilməsi üçün çəkilən xərclərdən dəfələrlə az olub.

AİŞ-in 01.01.2021-ci il tarixə ümumi portfelinin həcmi 338 milyon 270 min 542,4 manat təşkil edib. Portfelin 64.236.143,2 manat və ya 19,0 faizini AİŞ-in səhmlər və nizamnamə kapitalında iştirak payı, 145.742.400,0 manat və ya portfelinin 43,1 faizini istiqraz portfeli, 27.450.000,0 manat və ya 8,1 faizini depozit portfeli, 8.060.455,2 manatı və ya 2,4 faizini cari bank hesablarının qalığı, 92.781.544,0 manatı və ya 27,4 faizini isə sənaye məhəllələrinin yaradılması üçün ödənilmiş vəsait təşkil edib.

İki il sonra 01.01.2023-cü il tarixə AİŞ-in ümumi portfelinin həcmi 294.650.963,5 manat olub. Portfelin 69.723.912,2 manat və ya 23,6 faizini AİŞ-in səhmlər və nizamnamə kapitalında iştirak payı, 176.994.670,0 manat və ya portfelin 60,1 faizini istiqraz portfeli, 6.450.000,0 manat və ya 2,2 faizini depozit portfeli, 41.482.381,3 manatı və ya 14,1 faizini cari bank hesablarının qalığı təşkil edib. Göründüyü kimi, iki ildə istiqraz yatırımlarının payında 17 faizdən çox artım olub.

Palata qeyd edir ki, AİŞ-in auditlə əhatə olunan dövrdə investor cəlb etmə sahəsində fəaliyyətinin nəticəliliyinin aşağı olması səbəbindən AİŞ-in auditlə əhatə olunan dövrdə aktiv olan 12 layihəsindən 6-sı eyni tərəfdaşlarla icra edilib: “Bunu da investorlarla, yaxud bir portfel şirkətlə bağlı yarana biləcək risklərin eyni investorun cəlb olunduğu digər portfel şirkətə də təsir etməsi baxımından risk amili hesab edirik;

Layihələrin qiymətləndirilməsi mərhələsində investorların layihəyə marağının və xarici faktorların təsirinin düzgün qiymətləndirilməməsi nəticəsində 2021-ci ildə AİŞ-in Müşahidə Şurası tərəfindən təsdiq edilmiş 2 layihənin icrası qısa müddət sonra təmin edilə bilməyib, nəticədə həmin layihələrdə iştiraka dair qərar ləğv edilib.

“AİŞ-in strategiya sənədi”ndə müəyyən edilmiş strateji sənaye sahələri tam əhatə olunmadan AİŞ-in 3 kənar sahədəki layihədə iştirakı olmuş, habelə təşəbbüs daxil olmadığı əsas göstərilməklə AİŞ-in iştirakı nəzərdə tutulan və müvafiq sərəncamlarla təsdiq edilmiş dövlət proqramlarında əks olunan sahələrdə layihə icra olunmamışdır".

Müəyyən olunub ki, AİŞ-in investisiya yatırdığı bəzi layihələrin bazar dəyərinin azalması səbəbindən onların auditlə əhatə olunan dövrdəki konsolidə edilmiş maliyyə hesabatlarında əks olunan ədalətli dəyəri AİŞ-in həmin layihələrə yatırdığı investisiyanın nominal dəyərindən aşağı olub. Bundan əlavə, AİŞ-in portfel şirkətlərindən olan “Səba” ASC-nin auditlə əhatə olunan dövrdə AİŞ-ə təqdim etdiyi və ictimaiyyətə açıqladığı maliyyə hesabatlarının göstəricilərinin, o cümlədən mənfəət və zərər məbləğlərinin, habelə hesabatlara rəy verən audit şirkətlərinin və onların yanaşmalarının fərqli olması “Səba” ASC-nin maliyyə hesabatları ilə bağlı ciddi risklərin, habelə AİŞ-in bu istiqamətdəki nəzarət fəaliyyətində boşluqların mövcud olmasına dair ehtimalları şərtləndirir".

AİŞ-in maliyyə hesabatlarında əvvəlki illərdə investisiya olunan portfel şirkətlərin maliyyə vəziyyəti əsasən qənaətbəxş olmasa da, auditlə əhatə olunan dövrdə onların mənfəət/zərər göstəricilərində müsbət dinamika qeydə alınıb.

Ümumilikdə AİŞ-in portfel şirkətləri üzrə 2021-ci ildə ümumi zərər məbləği 72.142,0 min manat, 2022-ci ildə isə 4.611,0 min manat təşkil edib. Ümumi zərər məbləğində ildən-ilə azalma, əsasən, “Bakı Gəmiqayırma Zavodu” MMC-nin maliyyə hesabatlarında əks olunan göstəricilərin yaxşılaşması, habelə “Səba” ASC-nin AİŞ-ə təqdim edilən maliyyə hesabatlarındakı göstəricilərin ictimaiyyətə açıqlanan göstəricilərə nisbətən daha qənaətbəxş olması ilə bağlıdır.

**Palata qeyd edir ki, icrası ölkə xaricində həyata keçirilən və Azərbaycan iqtisadiyyatının inkişafına verəcəyi töhfə dəqiq ifadə olunmayan, habelə AİŞ-in birbaşa deyil, etibarnamə əsasında başqa müəssisə vasitəsilə idarəetmə orqanlarında təmsil olunduğu və layihələrin qiymətləndirilməsinin AİŞ tərəfindən deyil, tərəfdaş şirkət tərəfindən aparılaraq AİŞ-ə təqdim olunduğu layihələrə investisiya yatırılması barədə 2022-ci ildə qərar verilib və bu istiqamətdə bir neçə layihənin icrasına başlanıb:** “Tərəfdaş şirkətlə bağlanmış müqavilənin şərtlərinə əsasən, uzunmüddətli dövr ərzində say baxımından bu cür layihələr AİŞ-in səhm və pay qoyuluşu portfelinin əhəmiyyətli hissəsini təşkil edə bilər. Həmçinin qeyd edilən investisiyaların obyekti hər hansı istehsal müəssisəsi deyil, müxtəlif investorlardan investisiya qoyuluşlarını cəlb edərək başqa şirkətə yatırmaq məqsədilə qurulmuş vasitəçi şirkətlərdir (Special Purpose Vehicle - SPV). Qeyd edilən halları nəzərə alaraq AİŞ-in öz üzərinə götürdüyü risk səviyyəsini yüksək qiymətləndiririk.

Həmçinin qeyd edilməlidir ki, bu layihə “Xəzər Beynəlxalq İnvestisiya Şirkəti” QSC-dən sonra AİŞ-in investisiya qoyuluşlarını birbaşa deyil, vasitəçi şirkət vasitəsilə həyata keçirdiyi ikinci investisiya layihəsidir".

Auditin əhatə etdiyi dövrdə AİŞ-in səhm və pay qoyuluşu portfelinin satışından gəlirləri çəkilən xərclərdən dəfələrlə az olub.

2021-2022-ci illərdə əvvəlki maliyyə illərinin nəticələrinə görə AİŞ-in Müşahidə Şurası tərəfindən bölüşdürülməmiş mənfəətin bölüşdürülməsi barədə qərar qəbul edilməyib, o cümlədən Dövlət Neft Fonduna divident ödənilməyib.

AİŞ tərəfindən 2022-ci il ərzində xərc edilmiş vəsaitin faktiki məbləği həmin il üçün Müşahidə Şurasına təsdiq edilmək üçün təqdim olunan xərclər smetasındakından artıq olub ki, Palata bu halı AİŞ-in xərcləri barədə hərtərəfli məlumat əldə etməyə, vəsaitlərin icrasında şəffaflığın təmin olunmasına və xərclər smetasının əks etdirdiyi məlumatların həqiqiliyinə dair tam əminlik yaratmağa maneə hesab edir.

AİŞ tərəfindən 2021-2022-ci illərdə icra edilən satınalma məbləğinin 76,6 faizi bir mənbədən satınalma proseduru əsasında icra edilib, həmin satınalmalar üzrə ehtimal olunan qiymətlər müəyyən edilməyib, satınalma müqavilələri nümunəvi formaya uyğun tərtib edilməyib, bir mənbədən satınalma prosedurunun tətbiqinə dair razılıqlar müvafiq icra hakimiyyəti orqanından birbaşa deyil, dolayı yolla alınıb və sair.

Qanunvericilikdə müvafiq tələb qoyulmasına baxmayaraq, AİŞ Açıq Səhmdar Cəmiyyət olaraq öz illik hesabatını və maliyyə hesabatlarını, habelə bir sıra digər məlumatları dərc etmir ki, bu da AİŞ-in fəaliyyətinin şəffaflığını, ona ictimai nəzarəti təmin etməyə imkan vermir.

**İqtisadçı-ekspert Rəşad Həsənova görə, AİŞ-in fəaliyyəti uğurlu olmayıb:** “Burada şirkətin idarəçiliyinin, həm də real iqtisadiyyatın tələbinin rolu var. Real iqtisadiyyatdan tələb olmadığı şəraitdə investisiya yatırımından uğur əldə etmək mümkün deyil. Bundan əlavə, AİŞ-in fəaliyyəti ilə bağlı şəffaflıq baxımından ciddi dəyişikliklərə ehtiyac var. Şirkətin investisiya yatırdığı bir sıra şirkətlər kifayət qədər böyük bazar payına və maliyyə sabitliyinə malik şirkətlərdir. Onların gəlir əldə edə bilməməsi, AİŞ-ə divident ödəməməsi xeyli şübhəli görünür. Bu baxımdan, düşünürəm ki, şirkətin payçı olduğu müəssisələrin fəaliyyətində şəffaflığa nail olmaq üçün ciddi addımlar atmasına ehtiyac var”.

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

Yeni MÜSAVAT
N 64 (8437) 17 aprel 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

**Əməkdar artist, Azərbaycan Yazıçılar Birliyinin üzvü (AYB) Elza Seyidcahan efirdə kiçik yaşlı qızın "Tərəkəmə" rəqsini oğlan kimi oynamasına qəzəblənib. Qalmaqallı hadisə "Yaxşı deyək, yaxşı eşidək" verilişində baş verib.**





# Oğlanların qız, qızların isə oğlan kimi rəqs dəbi...

## Aydın Xan Əbilov: "Aidiyyəti qurumlar bu məsələ ilə bağlı ciddi addımlar atmalıdır"



Belə ki, əməkdar artist milli rəqslərimizdə qızların və oğlanların rəqsinin fərqli olduğunu söyləyib. Müğənni qızların oğlan, oğlanların isə qız kimi rəqs etməsini "faciə" adlandırıb: "Bu çərxi-fələk tərsinə dövran edir. İndi qızlar oğlan, oğlanlar qız olur. Bu "Tərəkəmə" rəqsini Xalq artisti, rəqqasə Roza Cəlilova belə oynayırdı? Bunu sənə kim öyrədib? Sən oğlansan? Oğlanlar indi oriyental rəqs edirlər. Bunu isə biz bəzi məclislərdə görürük. Bəzi müəllimlər uşaqları bədbəxt edirlər. Biabırçılıqdır. Bu cür gözəl qızı ediblər oğlan. Bu cür incə rəqsi nə günə qoyublar? Ana-ata da bilmir, fəxr edirlər ki, bizim qızımız oğlan kimi oynayır. Kişlərin və qızların rəqsi ayrıdır. Roza Cəlilova 90 yaşında elə rəqs edir ki... Bu gördüyümüz faciədir. Deyirlər Elza təhqir edir. Təhqir edirəm ki?"

Elza Seyidcahanın bu çıxışına Əməkdar artist Mehriban Xanlarova da haqq qazandırıb.

Qeyd edək ki, son zamanlar sosial şəbəkələrdə milli rəqsimizi oğlanların qız, qızların isə oğlan kimi ifa etdiyi videolar paylaşılır. Görüntülər ictimaiyyət arasında birmənalı qarşılanmır.

Əgər əvvəllər sərt texniki-dinamik hərəkətli rəqsləri yalnız kişilər edirdilərsə, son illərdə qadınlar da bu məsələdə kişilərdən heç də geri qalmırlar.

Maraqlı məqam ondan ibarətdir ki, son zamanlar azyaşlı uşaqlar arasında rəqs etməyə maraq artıb. Bu marağı sosial şəbəkələrdə tez-tez paylaşılan azyaşlı rəqslərindən də görmək mümkündür. Təzadlı məqam qız uşaqlarının oğlan kimi oynaması, kişi rəqsinə xas elementlərdən istifadə etmələridir. Oğlanlar isə qız kimi nazlana-nazlana rəqs edir. Bir sözlə, qızlar kişi kimi sərt, tullana-tullana rəqs edir, oğlanlarda isə bunun əksi müşahidə olunur.

Milli folklorumuzda qadın və kişi rəqsləri hərəkət elementlərinə görə fərqlənir. Azərbaycan qadın rəqs elmentlərinin əsasını ayaqların düz hərəkəti, bütün diqqətin əl və çiyinlərə yönəlməsi, başın və üzün hərəkəti təşkil edir. Qadın rəqslərindən fərqli olaraq, kişi rəqslərində ayaqların hərəkət texnikası böyük rol oynayır.

**Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, yazıçı-kulturoloq Aydın Xan Əbilov mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb:** "Azərbaycan incəsənətinin üzdə olan, daha çox meydanlarda, toylarda nümayişi ilə get-gedə rəngarəng formalar alan rəqslər, rəqs sənəti, xüsusilə milli rəqsimizlə bağlı problemlər bu günün və dünənin deyil, çoxdan başlamış bir prosesin real nəticələrindən qaynaqlanır. Qeyd edim ki, bu barədə Elza Seyidcahandan əvvəl mən də həmin televiziyanın sosial layihəsində söz açmışam. Yəni qızların oğlan, oğlanların isə qız kimi rəqs etməsini qətiyyətlə pisləmişdim. Bəli, Azərbaycanda istər toylarda, istərsə də sosial şəbəkələrdə tez-tez nümayiş etdirilən, müxtəlif rəqs müəllimlərinin və onların şagirdlərinin ifa etdiyi rəqslərlə bağlı artıq Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, aidiyyəti dövlət qurumları, hətta lazım gələrsə, Daxili İşlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ciddi təhlil, analiz aparmalıdır.

Bu gün toylarda gözümüzün qarşısında oğlan uşaqları narkotik istifadəçilərinin, avaraların, cinayət aləminin nümayəndələrinin hərəkətlərini rəqsə gətirir, bu mövzuda yazılmış mahnıların sədaları altında rəqs edirlər. Bəzən müşahidə edirik ki, peşəkar rəqqaslar belə bu cür hərəkətləri öz yaradıcılıqlarında təkrarlayırlar. Bununla əlaqədar ciddi ictimai qınaq, etiraz olmalıdır. Hər şey əvvəlcə rəqslə, musiqi ilə, filmlə, kliplə, şou-biznes hadisələri ilə başlayır. Necə olur ki, hansısa mahnılarda, meyxanalarda narkotik vasitələrin, dələduzluğun, avtoşluğun təbliğinə görə müğənnilər, ifaçılar həbs olunur, inzibatı məsuliyyətə cəlb edilir, amma bütün bunları rəqslərə gətirən, hətta kiçik uşaqlarda təqlid edən şəxslər məsuliyyətə cəlb olunmur? Axı həmin uşaqlar bizim övladlarımız, gələcəyimizdir. Əlbəttə ki, toylarımızda, məclislərimizdə başqa xalqların rəqslərini ifa etmək olar. Amma bizim mental dəyərlərimizi, milli xüsusiyyətlərimizi özündə əks etdirən rəqslərimizi olduğu kimi ifa etmək lazımdır.

Hesab edirəm ki, aidiyyəti qurumlar bu problemin həlli yolunda ciddi addımlar atacaq".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY

# Əczaçı qıtlığı: problemin kökündə nə dayanır?

## Farmakoloq: "İnsanların sağlamlığını biznes maraqlarına qurban verənlər..."

**Ekspertlər ölkədə əczaçı çatışmazlığının olması ilə bağlı narahatlıqlarını bildirirlər. Qeyd edilir ki, ali məktəblərdə əczaçılıq ixtisası üzrə plan yerlərinin artırılmasına ehtiyac var. Ölkədə apteklərin sayı artsa da, apteklərdə xidməti həyata keçirmək üçün yetərincə əczaçı çatışmır.**



Qeyd edək ki, Azərbaycanda fəaliyyət göstərən apteklər iki hissəyə bölünür. Bunlara nəzarət iki fərqli qurum tərəfindən həyata keçirilir. TƏBİB-in Dərman və tibb vasitələri departamentinin rəhbəri Elmin Quliyevin sözlərinə görə, apteklərin bir qisminə nəzarət TƏBİB-in, digər hissəsinə isə Səhiyyə Nazirliyinin səlahiyyətindədir: "Dövlət xəstəxanalarında yerləşən xəstəxanadaxili və imtiyazlı apteklərin fəaliyyətinə xəstəxanalar TƏBİB-in nəzdində olduğu üçün TƏBİB və TƏBİB-in müvafiq qurumu olan Dərman və Tibb Vasitələri Departamentinin Əczaçılıq şöbəsi nəzarət edir. Amma pərakəndə satış aptekləri, özəl və ya hansısa şirkət apteklərinə nəzarət isə Səhiyyə Nazirliyi və Səhiyyə Nazirliyinin müvafiq qurumu olan Analitik Ekspertiza Mərkəzi publik hüquqi şəxsinin səlahiyyətindədir".

Ekspert İlqar Hüseynli mediaya açıqlamasında deyib ki, ildən-ilə apteklərin sayı çoxalır, amma əczaçılar azalır. Onun sözlərinə görə, son vaxtlar ölkədə ali təhsilli əczaçı tapmaq demək olar ki, müşkülə çevrilib. Apteklər şəbəkəsi kifayət qədər genişləndiyi üçün əczaçılara ciddi ehtiyac yaranıb. Ekspert bildirib ki, əczaçı azlığı gələcəkdə xidmətin keyfiyyəti ilə bağlı ciddi problemlər yarada bilər. O əlavə edib ki, ali məktəblərdə əczaçılıq ixtisası üzrə plan yerlərinin artırılmasına ehtiyac var. Bununla qismən də olsa çatışmazlıqları aradan qaldırmaq olar.

**Tanınmış farmakoloq, dosent Aydın Əliyev mövzu ilə bağlı "Yeni Musavat"a bunları dedi:** "Çox təəssüf ki, bu gün aptekə, əczaçılara, dərmanlara çox ehtiyac yaranıb. Problemin kökü əslində buradadır. Niyə dərmanlara bu qədər ehtiyac yaranıb ki, apteklərin sayı çoxalsın, əczaçı qıtlığı yaransın. Məsələyə buradan baxmaq lazımdır. Nə qədər ki, bizim fəsilə uyğun geyimimiz, yerli qidalardan istifadə etmək, ekoloji natarazlıqlar olacaq, bu problem uzun müddət qalacaq. Bakıda atmosferin çirkli olması xəstəlikərin artmasına səbəb olur. Digər tərəfdən, Bakı küləkli şəhərdir, mövsümə uyğun geyinməyəndə qaraciyər, böyrək sistemi, mədə-bağırsaqda problemlər yaranır. Bundan əlavə, "fast-food" deyilən ayaqüstü yeməklər və orada istifadə olunan trans yağlar olduqca zərərlidir. Ümumiyyətlə, yemək təkrar qızardıldıqda və eyni yağda dəfələrlə qızartma yeməklər hazırlamaq çox təhlükəlidir. Çalışmaq lazımdır ki, bitki yağlarını qızartmamaq üçün istifadə olunsun".

**Həkim deyir ki, indi həkim göstərişi olmadan dərman almaq dəb halını alıb:** "Dərman prinsipcə zəhərdir. Şərt deyil ki, o dəqiqə öldürə. Həkimsiz dərman qəbul etdikdə mütləq insan bədəninə çox sayda ziyanları ortaya çıxır. Həkimsiz dərman zəhərdir, həkimin əlində zəhər dərman olur. Bu, böyük fəlsəfədir. Digər tərəfdən, şəhərdə nəqliyyat vasitələrində dərmanlar təbliğ olunur. Qəti şəkildə bu düzgün deyil. Anlayırıq, biznes maraqlarıdır. Amma insanların sağlamlığını biznes maraqlarına qurban vermək olmaz.

Daha bir məsələ ilin fəsilləri ilə bağlıdır, çünki hər fəslin öz əhəmiyyəti var. Bakıda biz demək olar ki, payız fəslini görmürük. Səbəbi? Parklara fikir verin. Ağacların yarpağı, çiçəyi torpağa düşür, o dəqiqə həmin yarpaqları yığışdırırlar. Hələ gəzərək torpağın qatını da zədələyirlər. Əslində meyvənin, yarpağın tökülməsi torpağı qidalandıran amildir. Yarpaqları asfaltdan yığışdırmaq lazımdır. Torpağın təbii qidası ilə qidalanmasının qarşısını almaq lazım deyil. Ona görə getdikcə ağacların quruması baş verir. Yəni təbii yaşıllıqlar getdikcə artmalıdır. Bütün bunlar yerində olarsa, qanunauyğunluq pozulmaz, insanlar sağlam olar, apteklərə müraciət də az olar. Elə bina var ki, aşağısında 3-4 aptek var. Bu, sırf biznes marağıdır. Bütün bunların qarşısını necə almaq olar? Səhiyyə qurumları hökumət qarşısında məsələ qaldırmalıdır. Həmin sahələr üzrə mütəxəssis çatışmazlığının da olduğunu, əczaçıların sayını artırmağı bildirməlidirlər".

Yeri gəlmişkən, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin yanvar-noyabr aylarında pərakəndə ticarət şəbəkəsində (apteklərdə) 1 152 milyon manatlıq əczaçılıq məhsulları və tibbi ləvazimatlar satılıb. Satış 2022-ci ilin yanvar-noyabr aylarına nisbətən 0.8% azalıb. Ötən ilin 11 ayında alıcıların pərakəndə ticarət şəbəkəsində aldıqları mallara xərclədiyi vəsaitin 2.2 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatlarının alınmasına sərf olunub.

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 64 (8437) 17 aprel 2024

# Bunları bilirsinizmi?

Aprel

* Səhərlər alma qəhvədən daha çox yuxunuzu açar!
* Evinizdəki toz parçacıqlarının böyük əksəriyyəti ölmüş dəri toxumasıdır.
* Rusiyada şərqdən qərbə doğru səyahət edilsə, yeddi saat qurşağı keçilər.
* Norveçin şimalında, hər yaz 14 həftə gecə-gündüz günəşli keçər.
* Dünyada hər dəqiqə iki dənə aşağı şiddətdə zəlzələ olmaqdadır.
* Hindistandakı illik doğum sayı Avstraliyanın cəmi əhalisindən çoxdur.
* Rusiyanın dörddə biri meşələrlə örtülüdür.
* Venera saat istiqamətində dönən tək planetdir.
* Sehrli söz "abrakadabra" ilk olaraq yüksək qızdırmalı xəstələrin atəşlərini salmaq üçün deyilmişdi.
* Merlin Monronun altı ayaq barmağı vardı.
* Albert Eyntşteyn doqquz yaşına qədər düz danışa bilməmişdi.
* Hər iki tərəf də qan olsa, Paraqvayda duel etmək qanunidir.
* Eyfel qülləsinin təpəsinə çıxana qədər 1792 pillə var.
* Bir akula 100 milyon damla dəniz suyu içindəki bir damla qanı hiss edə bilər.
* Ağcaqanad qovucu spreylər ağcaqanadları qovmur. Sizi gizləyir.
* Ağcaqanadın qulağımıza işgəncə kimi gələn vızıltı səsi onun saniyədə 500 dəfə qanad çırpmasına görə meydana gəlir.



## Ağcaqanadlar bu qan qrupundan olan insanları "sevir"

**Malyariya qansoran həşəratların daşıdığı yeganə xəstəlik deyil. Digər təhlükələrə sarılıq və qanaxmaya səbəb olan sarı qızdırma və Zika qızdırması daxildir. Xüsusilə hamilə qadınlar üçün təhlükəlidir, çünki bu, hamiləliyin pozulmasına və vaxtından əvvəl doğuşa, körpələrdə isə mərkəzi sinir sisteminin anormallıqlarına və mikrosefaliyaya səbəb olur. Bəs kim ağcaqanadların "hücumlarından" başqalarından daha çox qorxmalıdır? İnsanların sevimli yeməkləri olduğu kimi, qansoran həşəratların da sevimli qurbanları var. Bu barədə terapevt Larisa Alekseyeva danışıb.**

Onun sözlərinə görə, alimlər aşkar ediblər ki, ağcaqanadlar ən çox I qan qrupundan olan insanları sancırlar. Buna görə də uçan qaniçənlərdən qorunmaq üçün bu insanlara isti mövsümün başlanğıcında ehtiyatlı olmaq tövsiyə olunub. Ekspert qorunmaq üçün antihistaminiklər və xüsusi kremlər, ya spreylər ehtiyatı almağı tövsiyə edib. Üstəlik, ağcaqanadları təkcə qan deyil, həm də bədən qoxusu cəlb edir. Beləliklə, şirin ətirləri və meyvəli qoxuları sevənlər zəhlətökən həşəratlara daha çox məruz qalır, nəinki odunlu qoxulara üstünlük verənlər.

# Çexiyada göy öskürək kabusu: rekord sayda yoluxma var



**Ötən həftə Çexiyada rekord sayda (1 494) göy öskürək xəstəliyinə yoluxma halı qeydə alınıb. Bunu Çexiya Səhiyyə İnstitutunun saytında dərc olunan statistik məlumatlar göstərir. Statistikaya görə, ölkədə son 65 ildəki ən dəhşətli göy öskürək epidemiyası güclənir. Keçən həftə həkimlər tərəfindən müəyyən edilən xəstələrin sayı bütün 2023-cü ildəki yoluxma hallarının sayından iki dəfə çoxdur.**

Çexiyada bu ilin yanvar ayından bəri 7 888 göy öskürəyə yoluxma faktı təsdiqlənib. Sonuncu dəfə ölkədə bu xəstəliklə bağlı belə həyəcanverici vəziyyət 1959-cu ildə müşahidə olunub, o zaman 18 978 sakin xəstəliyə yoluxmuşdu. Həkimlər ölkə sakinlərinə göy öskürəyə qarşı peyvənd etməyi şiddətlə tövsiyə edirlər. Amma hazırda Çexiyada cəmi dörd min ədəd peyvənd var. Onlar ilk növbədə uşaqlar və hamilə qadınlar üçün nəzərdə tutulub. Bu həftə Kanada və Fransadan Çexiyaya 90 min ədəd göy öskürək peyvəndi gətirilməlidir.

## Arıqlamaq üçün xoş və təsirli üsul



**Çinin Hunan Elm və Texnologiya Universitetinin alimləri rəqsin arıqlamağa kömək etdiyini təsdiqləyiblər. Araşdırmanın nəticələri "Plos One" jurnalında dərc olunub. Ümumilikdə alimlər rəqs təliminin effektivliyinə dair 10 araşdırmanı təhlil ediblər. Onlar müəyyən ediblər ki, arıqlamaq üçün rəqs etmək həm bir qədər artıq çəkisi olan insanlar, həm də piylənmədən əziyyət çəkənlər üçün uyğundur. Bundan əlavə, alimlərin fikrincə, rəqslə arıqlamaq klassik fitnes dərsləri ilə müqayisədə daha təsirli ola bilər.**

Fakt budur ki, rəqs məşqi zamanı insanın diqqəti dərsdən daha çox müsbət emosiyalara keçir ki, bu da ona yorğunluq hissi üzərində cəmləşməməyə və daha uzun müddət məşq etməyə imkan verir. Tədqiqatçılar onu da təsdiqləyiblər ki, rəqs təkcə arıqlamağa kömək etmir, həm də əzələ tonusunu və balansını yaxşılaşdırır.



## Türkiyədə çiçəyi dərməklə bağlı qadağa: Yüksək məbləğdə cərimə ödəyəcəklər

**Türkiyənin Manisa və İzmir vilayətləri arasında yerləşən və endemik bitki növlərinin müxtəlifliyi ilə dünyanın ən əhəmiyyətli mərkəzlərindən biri olan Spil Dağı Milli Parkında Manisa laləsi (Tulipa orphanidea) adlı bitki çiçək açıb. Havalar isinəndə və ildə bir dəfə çiçək açan bu lalələrin qoparılmasına görə yüksək məbləğdə cəza təyin edilib. Belə ki, Spil Dağı Milli Parkında mühafizə altında olan Manisa laləsinin qoparılmasına görə cəza keçən il 244 min 315 lirə (13 min manata yaxın) olduğu halda, bu il 387 min 142 lirə olaraq (20 min manatdan çox) müəyyən edilib.**

## Alimlərdən maraqlı kəşf: insan enerjisi ilə işləyən...

**Cənubi koreyalı mühəndislər dəridə toplanan statik elektriklə işləyən portativ su təmizləyici qurğu hazırlayıblar. Cihaz iş üçün lazım olan enerjini cəmi 10 dəqiqəlik gəzinti zamanı toplayır. Belə bir cihaz xüsusilə təbii fəlakətlər zamanı və ya təmiz su mənbələrinə çıxışın olmadığı bölgələrdə faydalı ola bilər. Məlumata görə, yer üzündə təxminən iki milyard insanın keyfiyyətli suya çıxışı yoxdur və hətta daha çox insan əsas sanitariya və gigiyena infrastrukturuna malik olmayan şəraitdə yaşayır.**

## Mütəxəssisdən çörək, makaron və kartofla əlaqədar tövsiyə



**Adətən insanlar pəhrizdə çörək, makaron, kartof və bir çox digər bu kimi qidaları məhdudlaşdırmağa öyrəşiblər. Əslində bu qidalar ziyanlı deyil, onları yemək tərzi səhvdir.**

Bu barədə tanınmış rusiyalı həkim Yekaterina Volkova danışıb.

Mütəxəssis arıqlamaq istəyənlər üçün "qadağan olunmuş" ərzaqlardan ilk olaraq makaron haqqında danışıb. Onun sözlərinə görə, bu məhsul bərk növlərdən, tam taxıllardandırsa, onunla qidalanmaq faydalıdır, makaron orqanizmi uzunmüddətli enerji verən "yavaş" karbohidratlar və liflə təmin edir. Bununla belə, bu məhsuldan istehlak üçün optimal miqdar 70 qramdır.

"Pəhrizdə olsanız, belə rasionda məqbul olan ikinci məhsul kartofdur. 70-80 qram bişmiş və ya qaynadılmış kartof sizə yaxşı təsir edəcək. Təzə kartof seçmək daha yaxşıdır", - deyə həkim əlavə edib.

Diyetoloq rasionda vacib ərzaqlardan birinin də pendir olduğunu bildirib. Onun sözlərinə görə, tərkibində kalsium, fosfor, sink, "A", "B1", "B2", "B12", "C", "D", "E", "PP" vitaminləri, amin turşuları olan bu ağartı qadağan edilməməlidir.

"30 qram sərt pendir həmçinin şirin bir şey istəyini azaldır", - deyə o vurğulayıb.Voldova pəhriz saxlayanların özlərinə qadağan etdikləri digər iki məhsulun çörək və banan olduğunu bildirib. "Tam taxıl çörəyini seçməliyik. Onun tərkibində vitaminlər, fermentlər, mikro və makro elementlər, lif var. Banana gəlincə, artıq yetişmiş, şirin olanları yemək olmaz. Bizim (arıqlamaq istəyənlərin) bananları yaşıldır, onların tərkibində sadə nişasta deyil, "davamlı" nişasta var", - deyə həkim sözlərini yekunlaşdırıb.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor:
Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib,
"Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri,
R.Rüstəmov küçəsi
2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500